# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

# PROTOKOLU № 79

*Milli Məclisin iclas salonu.*
*10 iyul 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**İlhamə Qədimova**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.
**Zaur Əliyev**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.
**Seymur Səfərli**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.
**Firidun Tağıyev**, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri.
**Sərdar Hacıyev**, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmətlər Agentliyinin sədri.
**Ceyhun Əliyev**, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akvakultura Mərkəzinin direktoru.
**Elşad Məmmədov**, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin sədr müavini.
**Lalə Əkbərova**, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin Hüquq şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair” Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
2. “Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında”, “Nəqliyyat haqqında”, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Aviasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Toxumçuluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “Seleksiya nailiyyətləri haqqında”, “Dövlət rüsumu haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Balıqçılıq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və “Qiymətləndirmə fəaliyyəti haqqında”

Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Torpaq bazarı haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında”, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

20. “Tibbi sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

21. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

22. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. "Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair" Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Pərvanə Vəliyeva

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Elşən Musayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**4. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**5. “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**6. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**8. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev, Samir Vəliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** 3-cü maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**11. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Müşfiq Məmmədli

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 102 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**12. Toxumçuluq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Əli Əhmədov, Zahid Oruc, Siyavuş Novruzov, Vüqar Bayramov, Müşfiq Cəfərov, Vüqar İskəndərov, Azər Allahverənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**13. "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Əhmədov, Azər Badamov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**14. Balıqçılıq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əhmədov, Tahir Rzayev, Sadiq Qurbanov, Razi Nurullayev, Pərvanə Vəliyeva, Vasif Qafarov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**15. "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əhmədov, Azər Badamov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Nurlan Həsənov, Azər Badamov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Nurlan Həsənov, Azər Badamov, Siyavuş Novruzov, Vüqar Bayramov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Azər Badamov, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**20. "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**22. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bədəl Bədəlov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*10 iyul 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik, yetərsayımız var.

Xahiş edirəm, gündəliyə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Gündəlik qəbul edildi.

Gündəliyin məsələlərinin müzakirəsinə keçirik. Hörmətli deputatlar, bu gün biz 22 məsələni müzakirə etməliyik. Gündəliyin ilk 2 məsələsi beynəlxalq sənədlərlə bağlıdır. Ona görə də bu qanun layihələri bir

oxunuşda qəbul ediləcək. Bilirsiniz ki, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə görədir.

İndi biz 1-ci məsələyə keçirik. “Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair” Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələ ilə əlaqədar məlumat vermək üçün komitənin üzvü hörmətli Zaur Şükürova söz verirəm. Zaur müəllim, buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar və dəyərli media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən layihəsi Milli Məclisin müzakirəsinə təqdim olunan qanunla ölkəmizin qoşulması nəzərdə tutulan “Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair” Beynəlxalq Konvensiya 2004-cü il fevralın 13-də London şəhərində imzalanmışdır. Sənəd balllast sularının idarə edilməsi sisteminin müəyyənləşdirilməsi ilə bağlı bir sıra texniki səbəblərdən, habelə digər dövlətlərdəki daxili ratifikasiya prosedurları ilə əlaqədar 2017-ci il sentyabrın 8-də qüvvəyə minmişdir. Hazırda 100-dək ölkə bu Konvensiyanın tərəf dövlətləridir.

Ballast suları dedikdə gəminin oturmasını, meyillənməsini, yan almasını, stabilliyini və ya konstruktiv gərginliklərini tənzimləmək məqsədi ilə göyərtədə xüsusi çənlərdə daşınan və tərkibində asılı hissəciklər olan su nəzərdə tutulur.

Ballast suları və çöküntülərinin tərkibindəki zərərli su orqanizmlərinin və patogenlərin aradan qaldırılması, zərərsizləşdirilməsi, onların qəbulu və ya

buraxılmasının qarşısının alınması prosesi, fərdi və birgə şəkildə tətbiq olunan mexaniki, fiziki, kimyəvi və bioloji üsullar vasitəsi ilə həyata keçirilir.

Ballast sularda mövcud olan müxtəlif su orqanizmləri və patogenlər bir dəniz mühitindən digərinə keçərək ekoloji tarazlığın pozulmasına, biomüxtəlifliyə, balıqçılıq təsərrüfatına və insan sağlamlığına mənfi təsir göstərə bilər. Preambula, 22 maddə və ballast sularının idarə olunması üzrə texniki tələblər, beynəlxalq standartlar və sertifikatlaşdırma qaydaları, o cümlədən Ballast Suları Uçot Kitabına dair əlavələrdən ibarət olan konvensiyanın əsas məqsədi məhz belə halların qarşısının alınması və dənizlərdə ekoloji mühitin qorunmasıdır.

Konvensiya ballast sularının idarə olunması sahəsində vahid beynəlxalq hüquqi çərçivə müəyyən edir. Konvensiyaya əsasən sənədin tətbiq dairəsinə daxil olan gəmilər ballast sularının idarə olunması planına malik olmalı, bu proseslə bağlı aparılan bütün əməliyyatların uçotunu xüsusi kitabda qeyd etməli, beynəlxalq sertifikat almalı və müəyyən edilmiş qaydada mütəmadi yoxlamalardan keçməlidirlər. Ballast sularının idarə olunması beynəlxalq standartlara uyğun həyata keçirilməli, bu məqsədlə ballast sularının mübadiləsi və ya təsdiq edilmiş emal sistemlərindən istifadə edilməlidir. Eyni zamanda, insanların həyatının xilas edilməsi və gəminin təhlükəsizliyinin təmin olunması kimi hallarda da ballast sularının axıdılmasına dair istisnalar nəzərdə tutulur.

Konvensiyanın tətbiq sahəsi, öhdəliklər, gəmilərin ballast suları və çöküntülər vasitəsi ilə zərərli su orqanizmləri və patogenlərin ötürülməsinə nəzarət, çöküntü qəbulu qurğuları, elmi-texniki tədqiqat və monitorinq, yoxlama və sertifikatlaşdırma, pozuntuların aşkarlanması və gəmilərə nəzarət, texniki yardım və regional əməkdaşlıq, məlumatların ötürülməsi,

mübahisələrin həlli, ratifikasiya, qoşulma və denonsasiyaya dair məsələlər konvensiyanın müvafiq maddələrində qeyd olunmuşdur.

Ölkəmizin bu konvensiyaya qoşulması ballast sularının və çöküntülərinin idarə edilməsinin beynəlxalq standartlara uyğun təşkilinə, dəniz ekosisteminin mühafizəsinin gücləndirilməsinə və ölkənin beynəlxalq dəniz hüququndan irəli gələn öhdəliklərinin icrasına xidmət edəcəkdir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Komitəmizin adından qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Zaur müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. İndi isə mən sözü komitənin sədri hörmətli Səməd Seyidova verirəm. Səməd müəllim, buyurun, komitənin rəyini bildirin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, Zaur müəllim çox geniş və ətraflı məlumat verdi. Komitəmiz tam lehinədir. Xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Heç kim müzakirəyə yazılmayıb. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 106
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun qəbul edildi.

2-ci məsələyə keçirik. Bu, “Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə”nin təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün sözü komitənin üzvü hörmətli Nizami Səfərova verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir.

İlk növbədə qeyd etmək istərdim ki, mülki və ticarət işləri üzrə hüquqi yardım beynəlxalq əməkdaşlığın əhəmiyyətli sahələrindən biridir və onun hüquqi bazasını çoxtərəfli və ikitərəfli beynəlxalq müqavilələr təşkil edir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı çoxtərəfli beynəlxalq hüquqi aktlar sırasında “Mülki və ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında” 15 noyabr 1965-ci il tarixli Haaqa Konvensiyası, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin “Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında” 22 yanvar 1993-cü ildə Minsk şəhərində imzalanmış Konvensiya, 7 oktyabr 2002-ci ildə Kişinyov şəhərində qəbul edilən Konvensiya qeyd oluna bilər.

Azərbaycanın hüquq-müqavilə təcrübəsinin digər mühüm istiqaməti ikitərəfli formatda mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında müqavilələrin bağlanmasıdır. Bu kateqoriyaya daxil olan beynəlxalq razılaşmalar əvvəlki dövrlərdə Türkiyə, Bolqarıstan, Hindistan, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri və Mərakeş Krallığı ilə imzalanmışdır.

Növbəti sənəd beynəlxalq müqavilə hüququ sahəsində müvafiq qaydaları tənzimləyən və dövlətlərarası müqavilələrə münasibətdə tətbiq edilən “Müqavilələr hüququ haqqında” 1969-cu il 23 may tarixli Vyana Konvensiyasının müddəalarına uyğun tərtib olunan və 2026-cı il aprelin 25-də Qəbələ şəhərində iki dövlətin xarici işlər nazirləri tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə”dir.

Hörmətli deputatlar, nəzərə almaq lazımdır ki, Azərbaycanla Ukrayna arasında siyasi, iqtisadi, elm, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətt üzrə  inkişaf edir və iki dövlət strateji tərəfdaşdır. Məlumat üçün bildirmək istərdim ki, ikitərəfli münasibətlər əsaslı hüquqi bazaya söykənir və ölkələrimiz arasında, ümumilikdə, 150-dən çox beynəlxalq saziş imzalanmışdır ki, onlardan 66-ı dövlətlərarası və hökumətlərarası xarakter daşıyır.

Müzakirəyə təqdim olunan müqavilə preambuladan və 25 maddədən ibarətdir, eləcə də beynəlxalq təcrübədə qəbul edilən hüquqi standartları özündə ehtiva edir. Onun tənzimləmə predmetinə mülki və ticarət işləri üzrə hüquqi yardımın həcmi, göstərilməsi qaydası, məhkəmələr və digər orqanlar arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi, fiziki və hüquqi şəxslərin hüquqları, qanuni mənafelərinin təmin edilməsi, məhkəmə qərarlarının qarşılıqlı tanınması, icrasının hüquqi çərçivəsinin müəyyən edilməsi daxildir.

Müqavilənin 4-cü maddəsinə uyğun olaraq, tərəflərin mərkəzi orqanları qismində Azərbaycan Respublikasının və Ukraynanın ədliyyə nazirlikləri təyin edilmişdir.

Müqavilə qeyri-müəyyən müddətə bağlanmışdır və ratifikasiya sənədlərinin mübadiləsi tarixindən 30 gün sonra qüvvəyə minir.

Hörmətli deputatlar, "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanun layihəsinin qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən sözü hörmətli Pərvanə xanım Vəliyevaya verirəm. Pərvanə xanım, buyurun.

**Pərvanə Vəliyeva,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə"yə dair qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmış və plenar iclasa tövsiyə olunmuşdur.

Hörmətli həmkarım Nizami Səfərov layihə haqqında ətraflı məlumat verdi. Sözü gedən müqavilə Ukrayna prezidentinin ölkəmizə səfəri çərçivəsində cari il aprelin 25-də Qəbələ şəhərində imzalanmışdır.

Qeyd olunduğu kimi, sənəd hər iki ölkə vətəndaşlarının hüquqi müdafiəsini təmin etmək və məhkəmə qərarlarının qarşılıqlı tanınmasını asanlaşdırmaq məqsədi daşıyır. Bu ölkələr arasında hüquqi münasibətlər

daha dərindir və yalnız mülki, ticarət məsələləri ilə məhdudlaşmır. Azərbaycan və Ukraynanın hüquq sahəsində çoxtərəfli və ikitərəfli əməkdaşlığı da mövcuddur.

Onu da qeyd edim ki, Azərbaycan Respublikası tərəfindən Ukraynaya əhəmiyyətli ölçüdə bərpa və yenidənqurma məqsədli humanitar yardımlar göstərilmişdir.

Azərbaycan ukraynalı uşaqların sosial-psixoloji reabilitasiyasına önəm verən nadir ölkələrdəndir və mütəmadi olaraq həmin uşaqların ölkəmizdə müvafiq dəstək alması təşkil olunur.

Ukrayna Ali Radası ilə Azərbaycan Milli Məclisi arasında da səmərəli əməkdaşlıq mövcuddur, mütəmadi olaraq baş tutan qarşılıqlı səfərlər Azərbaycan–Ukrayna parlamentlərarası münasibətlərini daha da möhkəmləndirir.

Sözü gedən müqavilənin ratifikasiyası Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi və mülki münasibətlərin hüquqi bazasını möhkəmləndirməsinə xidmət edəcəkdir.

Layihə ilə bağlı komitəmizin rəyi müsbətdir. Həmkarlarımı layihəyə səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış üçün yazılan yoxdur. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz digər məsələlərə keçirik. Gündəliyin növbəti beş məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 3-cü məsələ – Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında" Qanunda və digər beş qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Azər Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qeyd olunan qanun layihələri Milli Məclisdə birinci və ikinci oxunuşlarda ətraflı müzakirə olunmuş, layihənin məqsədi, mahiyyəti və əhəmiyyəti barədə geniş məlumat verilmişdir.

Müzakirələr zamanı hörmətli deputatlarımız tərəfindən layihə müsbət qiymətləndirilmiş və onun ölkəmizdə nəqliyyat sahəsinin müasir texnologiyalara uyğun inkişafı, hüquqi tənzimləmənin təkmilləşdirilməsi və innovativ həllərinin tətbiqi baxımından əhəmiyyəti vurğulanmışdır.

Qanun layihəsi üçüncü oxunuşun tələblərinə uyğundur və qəbul edilməsi məqsədəuyğun hesab edilir. Hörmətli Sahibə xanım, qanun layihəsinin üçüncü oxunuşda da səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb və bu gün komitənin rəyini bizə komitə sədrinin müavini hörmətli Elşən Musayev təqdim edəcək. Buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. İkinci oxunuşdan sonra komitəyə qanun layihəsi ilə bağlı heç bir irad və təklif daxil olmamışdır. Üçüncü oxunuşda da layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Elşən müəllim.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur, mən qanun layihəsini birbaşa səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu bizim gündəliyimizdə 4-cü məsələdir və “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə 2025-ci il 9 dekabr tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqındadır. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, Azər Badamov, komitə sədrinin müavini.

**Azər Badamov.** Hörmətli xanım sədr, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, bəzi qanunlarda

dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşun tələblərinə tam cavab verir.

Layihə birinci və ikinci oxunuşlarda müzakirə olunmuşdur. Dəyişikliklərlə bağlı hər hansı təklif irəli sürülməmişdir. Bunu nəzərə alaraq qanun layihəsinin üçüncü oxunuşda  olduğu kimi səsə qoyulmasını xahiş edirəm.  Diqqətinizə  görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. Bizim gündəliyimizin 5-ci məsələsi "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, təqdim etdiyimiz qanun layihəsi barədə birinci və ikinci oxunuşda ətraflı məlumat

verilmişdir. Layihə ilə bağlı həmkarlarımız tərəfindən hər hansı qeyd və ya təklif irəli sürülməmişdir. Layihənin üçüncü oxunuşda da qəbul edilməsini məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, üçüncü oxunuşdur və heç bir dəyişiklik yoxdur. Qanun layihəsini səsə qoyuram. Münasibət bildirməyinizi xahiş edirəm, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu, çox sağ olun.

Növbəti məsələ “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Azər müəllim, bu layihəyə də sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin, buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, bu qanun layihəsi ilə bağlı həmkarlarımız tərəfindən hər hansı bir rəy, təklif və ya qeyd irəli sürülməmişdir. Layihənin üçüncü oxunuşda mövcud redaksiyada səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsi üçüncü oxunuşda səsə qoyulur. Buyurun, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Bizim növbəti 7-ci məsələmiz Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə, bilirsiniz ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Yenə də komitənin rəyini hörmətli Elşən Musayev bildirəcək. Buyurun, Elşən müəllim.

**Elşən Musayev**. Çox hörmətli xanım sədr, bu layihənin də ikinci oxunuşunda dəyərli həmkarlarımızdan tam dəstək almışıq, üçüncü oxunuşda da həmin dəstəyi gözləyirik. Səsə qoyulmasını  xahiş edirəm.

**Sədrlik edən.** Elşən müəllim, çox sağ olun. Sənədə İnsan hüquqları komitəsində də baxılıb. Komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun, komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Layihə plenar iclasda iki oxunuşdan uğurla keçib. Komitəmizin rəyi müsbətdir. Xahiş olunur, nəzərə alınsın. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

Çox sağ olan, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz bugünkü gündəliyimizdə üçüncü oxunuşda olan bütün qanunları qəbul etdik. Növbəti 4 məsələ ikinci oxunuşda olan qanun layihələridir. Xahiş edirəm, çıxışlar ikinci oxunuşun tələblərinə uyğun olsun.

Biz 8-ci məsələyə keçirik. Bu, "Psixiatriya yardımı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Əhliman Əmiraslanova verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, əziz həmkarlar və media mənsubları. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin 2026-cı il iyunun 30-da keçirilmiş plenar iclasında birinci oxunuşda geniş müzakirə olunmuş və yekdilliklə qəbul edilmişdir.

Müzakirələr zamanı layihəni dəstəkləyən və öz təkliflərini səsləndirən deputat həmkarlarım Zahid Oruca, Bəxtiyar Əliyevə, Vasif Qafarova, Elçin Mirzəbəyliyə, Nigar Məmmədovaya və yazılı təkliflərini təqdim edən Qüdrət Həsənquliyevə təşəkkürümü bildirirəm. Komitə həmin təkliflərin hər birini diqqətlə nəzərdən keçirmişdir.

Deputat həmkarım Vasif Qafarovun səsləndirdiyi təkliflərlə bağlı qısa olaraq qeyd etmək istərdim ki, pasiyent hüquqlarının əlavə təminatları, elektron sağlamlıq məlumatlarının qorunması, kibertəhlükəsizlik və audit mexanizmləri ilə bağlı təkliflər mahiyyət etibarı ilə vacib olsa da, bunlar digər normativ hüquqi aktların  predmetinə aid olduğundan bu qanun layihəsinə daxil edilməmişdir.

Həmçinin layihədə istifadə olunan “dərhal məlumat verilir” ifadəsi qüvvədə olan qanunvericilikdə geniş tətbiq olunan hüquqi termindir və əlavə dəqiqləşdirməyə ehtiyac yaratmır.

Hörmətli həmkarlar, bütün qeyd edilənləri nəzərə alaraq qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim. Mən düşünürəm ki, Vasif müəllim bəzi məsələləri qaldırıbsa, bəlkə ya sizinlə, ya da hansısa digər komitənin profilinə uyğundursa, sonra işçi qaydada söhbət etsin. Yəni ora yönəltmək lazımdır. Fərid müəllim, bunu nəzərə alın.

Hörmətli həmkarlar, bilirsiniz ki, ikinci oxunuşdur deyə, əvvəlcə qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, bu qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirəsiniz, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi, çox sağ olun.

Müzakirəyə heç kim yazılmayıb. Ona görə də mən səsvermə prosedurlarını həyata keçirirəm. Bilirsiniz ki, ikinci oxunuşda biz həmişə əvvəlcə maddələr üzrə səs veririk. Bu qanun layihəsində 7 maddə var. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci, 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Xahiş edirəm, növbəti 4 maddəyə münasibət bildirəsiniz, mən səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. 9-cu məsələmiz Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, özünüz məlumat verəcəksiniz? Buyurun. Azər Əmiraslanov, komitə sədri.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, təqdim edilmiş qanun layihəsi ilə bağlı birinci oxunuşda geniş və ətraflı məlumat verilmişdir. Bir daha xatırlatmaq istərdim ki, bu layihə özəl bölmədə və qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlara ƏDV depozit hesabı üzrə vəsaitlərin Dövlət Sosial Müdafiə Fondu üçün ayrılmasına hüquqi əsaslar yaradır. Hesab edirik ki, bu layihə sahibkarların müraciətləri əsasında hazırlanmışdır və bu, həm qeyri-neft sektorunun inkişafına, həm də, bütövlükdə, sahibkarlığın dəstəklənməsinə xidmət edir.

Layihə birinci oxunuşda həmkarlarımız tərəfindən dəstəklənmişdir, ikinci oxunuşda da layihənin qəbul edilməsini və olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, ikinci oxunuş olduğu üçün qanun layihəsini əsas kimi qəbul etməliyik. Səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirələrə keçirik. Gördüm, çıxışa yazılan var. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, dəyərli deputatlar və media nümayəndələri. Mənim yerli istehsalçılarla bir neçə görüşüm olmuşdur. Onlar çox israrla bu məsələnin parlamentdə deyilməsini və kömək göstərilməsini xahiş edirlər. Ola bilsin ki, bu çıxış birbaşa və ya dolayısı ilə müzakirə olunan məsələyə aiddir. Əgər hər hansı bir uyğunsuzluq görsəniz də, bunu mənə bağışlamağınızı xahiş edirəm.

Bu gün diqqətinizə çatdırmaq istədiyim məsələ yerli istehsalçıların iri ticarət şəbəkələrinə çıxışında mövcud olan sistemli maneələr və bunun milli iqtisadiyyatımıza yarada biləcəyi risklər ilə bağlıdır. Son dövrlərdə yerli sahibkarlar tərəfindən səsləndirilən narahatlıqlar göstərir ki, məhsulların supermarket və digər iri ticarət şəbəkələrində satışa çıxarılması üçün müxtəlif giriş, listinq, marketinq ödənişləri tələb olunur. Məlumatlara görə, bəzi hallarda bu ödənişlər hər bir filial üzrə 200 manatdan başlayaraq 500-1000 manata, hətta daha yüksək məbləğlərə qədər çatır. Problem təkcə ödənişin mövcudluğu deyil. Problem ondadır ki, istehsalçı hər bir filial üçün ayrıca ödəniş etməyə məcbur qalır. Nəticədə kiçik və orta sahibkar hələ məhsulunu satmadan ciddi maliyyə yükü ilə üz-üzə qalır. Məhdud dövriyyə vəsaiti ilə fəaliyyət göstərən yerli istehsalçı üçün bu bazara çıxışın faktiki olaraq məhdudlaşdırılması deməkdir.

Eyni vəziyyət iri xarici istehsalçılar və idxalçılar üçün xarakterik deyil. Onlar böyük istehsal həcmlərinə, güclü maliyyə imkanlarına, inkişaf etmiş logistika sisteminə və iri marketinq büdcələrinə  malik olduqları üçün bu xərcləri rahatlıqla qarşılaya bilir.

Bundan əlavə, iri istehsal miqyası ilə daha aşağı maya dəyəri onlara məhsullarını dempinqə və ya ona yaxın qiymətlərlə bazara çıxartmağa

imkan verir. Beləliklə də yerli istehsalçı ikiqat təzyiq altında qalır. Bir tərəfdən, rəfə çıxmaq üçün yüksək ödənişlər ödəməli, digər tərəfdən isə, maya dəyəri daha aşağı olan idxal məhsulları ilə qiymət rəqabəti aparmalıdır. Bu da faktiki olaraq rəqabət mühitini qeyri-bərabər vəziyyətə gətirir. Nəticədə keyfiyyətli yerli məhsul belə istehlakçıya çatmaq imkanını itirə bilir. Ticarət rəfləri getdikcə daha çox idxal məhsulları ilə dolur, yerli istehsalçı isə bazara daxil olmaq üçün maliyyə baryerlərini aşmağa çalışır. Ciddi narahatlıq doğuran başqa bir məqam isə odur ki, iri ticarət şəbəkələri istehlak bazarına çıxışın faktiki nəzarətçisinə çevrilir. Sahibkar məhsulunun satışı üçün deyil, sadəcə, rəfdə yer almaq hüququ üçün ödəniş edir. Bu, qətiyyən bazar iqtisadiyyatının mahiyyətinə uyğun deyil və normal rəqabəti təhrif etmiş olur.

Bu praktikanın uzun müddət davam etməsi ticarət şəbəkələrində yerli məhsulların payının azalmasına, kiçik və orta sahibkarlığın zəifləməsinə, yerli istehsalın idxal məhsulları tərəfindən bazardan sıxışdırılıb çıxarılmasına, milli brendlərin rəqabət qabiliyyətinin zəifləməsinə, istehsala investisiyaların azalmasına, yeni iş yerlərinin yaradılmasının məhdudlaşmasına, vergi daxilolmalarının azalmasına yol açır və nəticə etibarı ilə ölkənin ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir.

Bu səbəbdən, hesab edirəm ki, məsələ yalnız kommersiya münasibətləri çərçivəsində deyil, həm də dövlətin iqtisadi siyasəti və antiinhisar prinsipləri baxımından qiymətləndirilməlidir. Təklif edirəm ki, yerli ticarət şəbəkələrindən təchizatçıların şəbəkəyə qəbul şərtləri barədə ətraflı məlumat tələb olunsun, listinq, marketinq və digər ödənişlərin həcmi araşdırılsın, onların yerli istehsalçılara təsiri ayrıca qiymətləndirilsin. Eyni zamanda, məhsulların ticarət şəbəkələrinə çıxışı üçün şəffaf və vahid qaydalar müəyyən edilməli, yerli istehsalçılar üçün bu ödənişlərin

məhdudlaşdırılması və ya tənzimlənməsi imkanları nəzərdən keçirilməli, onların pərakəndə ticarətə çıxışını asanlaşdıran dəstək mexanizmləri hazırlanmalıdır. Həmçinin bu ödənişlərin antiinhisar qanunvericiliyi baxımından hüquqi qiymətləndirilməsi və idxal məhsulunun dempinq qiymətlərinin yerli istehsala təsirinin təhlili aparılmalıdır.

Mən yerli istehsalçı üçün xüsusi imtiyazların yaradılmasını təklif etmirəm. Söhbət yalnız ədalətli rəqabət mühitinin təmin edilməsindən gedir. Azərbaycan istehsalçısı öz alıcısı uğrunda rəfə çıxış üçün ödədiyi yüksək ödənişlər ilə deyil, məhsulunun keyfiyyəti, qiyməti və etibarlı təchizatı ilə rəqabət aparmalıdır. İnanıram ki, ticarət şəbəkələri qapalı kommersiya filtri kimi deyil, Azərbaycan məhsulunun ölkə istehlakçısına ədalətli şəkildə çatdırıldığı platforma kimi fəaliyyət göstərməlidir.

Çox hörmətli Sahibə xanım, Sizin icazənizlə təklif edirəm ki, bu məsələ ilə bağlı Milli Məclisdə yerli istehsalçıların, iri və pərakəndə ticarət şəbəkələrinin, eləcə də aidiyyəti dövlət qurumlarının iştirakı ilə geniş ictimai dinləmə keçirilsin. Həmin ictimai dinləmə payız sessiyasında müvafiq komitənin iş planına daxil edilsin. Ümid edirəm ki, bu müzakirələr qanunvericiliyin daha da təkmilləşdirilməsinə və mövcud problemlərin birgə həllinə mühüm töhfə verəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Samir Vəliyev. Buyurun.

**Samir Vəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanun layihəsinin təhlili o qənaətə gəlməyə əsas verir ki, layihədə əks olunan məsələlər müvafiq istiqamətlərdə formalaşan və bu gün inkişaf edən trendlərlə qeyri-neft-qaz sektorunun daha da intensiv inkişaf etməsi potensialının reallaşdırılması baxımından uyğunluq təşkil edir.

Son illər ölkəmizdə qeyri-neft-qaz sektorunun inkişafı ilə bağlı görülmüş işlər, həyata keçirilməsi davam etdirilən tədbirlər sistemli məzmun kəsb edir. Bu kontekstdə həmin tədbirlər sırasında fiskal seqment çəçivəsində tətbiq edilən yanaşmalar önəmli yer tutmaqdadır.

Qeyri-neft-qaz sektorunun makroiqtisadi göstəricilərə təsir payının kəskin artması artıq bu günümüzün reallığıdır. Bunu biz büdcə parametrlərində, eləcə də ümumi daxili məhsulun struktur göstəricilərində, xarici ticarətdə formalaşan müvafiq rəqəmlərdə və digər makro indikatorlarda müşahidə edə bilirik. Təbii ki, formalaşan pozitiv dinamikanın daha da dayanıqlı məzmun alması üçün bu istiqamətdə mövcud olan imkanlar araşdırılmalı, proaktiv tədbirlərin reallaşdırılması mümkün qədər həyata keçirilməlidir. Bu baxımdan, fiskal seqmentdə tətbiq edilə bilən stimullaşdırıcı tədbirlərin qanunvericilik bazasının yaradılması, hesab edirəm ki, çox böyük önəm kəsb etməkdədir.

Onu da qeyd edim ki, özəl qeyri-neft-qaz sektorunun vergi seqmenti üzrə əldə etdiyi güzəştlər nəticəsində formalaşan maliyyə resurslarının amortizasiya xərclərinə yönəldilməsi biznesin rəqabət qabiliyyətinin gücləndirilməsi üçün imkanlar açmaqdadır və bundan istifadə edilməlidir.

Onu da vurğulamaq istərdim ki, qeyri-neft-qaz sektorunda maliyyə resurslarının genişləndirilməsi ölkəmizdə daxili özəl investisiya institutunun inkişaf etməsinə də öz müsbət təsirini göstərməkdədir. Bu məqamda onu da bildirmək istərdim ki, müxtəlif ekspert hesablamalarına və yanaşmalarına görə aktual iqtisadi şəraitdə daxili özəl investisiya institutunun inkişafı pozitiv makroiqtisadi gündəmin formalaşdırılması üçün çox mühüm amildir. Bu baxımdan, təqdim edilən layihənin böyük önəm kəsb etməsi danılmazdır. Fikrimcə, layihə özəl qeyri-neft-qaz sektorunu əlavə dəyər vergisinin depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna

vəsaitin köçürülməsi üçün imkanların formalaşdırılması məqsədi baxımından hazırlanmışdır.

Qeyd edək ki, vəsaitin göstərilən qaydada köçürülməsi imkanının 4 il müddətinə qüvvədə olması nəzərdə tutulmuşdur. Hesab edirəm ki, layihədə əks olunan məsələlərin tətbiqi nəticəsində makroiqtisadi proseslərin pozitiv şəkildə davam etməsi istiqamətində fiskal mexanizmlər vasitəsi ilə daha da güclü müsbət impuls verilməsi gözlənilir.

Bununla yanaşı iki təklifimi səsləndirmək istərdim.

Birincisi, qeyri-neft-qaz özəl sektor nümayəndələrinə onlar tərəfindən investisiya-amortizasiya xərclərinin artırdıqları ilə bağlı təsdiqedici sənədlər təqdim edildikdə güzəşt mexanizmlərinin daha da genişləndirilməsi. Zənnimcə, bu, biznes infrastrukturunun daha da möhkəmləndirilməsinə, müvafiq resursların investisiya axınlarının artmasına xidmət edə bilər.

İkincisi, özəl qeyri-neft-qaz sektorunda əlavə dəyər vergisinin depozit hesabından vəsaitin Dövlət Sosial Müdafiə Fonduna köçürülməsi imkanının müddətinin 4 ildən 7 ilə qədər artırılması. Fikrimcə, bu təklifin əsasını 2019–2026-cı illərdə qeyri-neft və qeyri-dövlət sektorunda çalışan işçilərin əmək haqları üzrə 7 il müddətinə genişmiqyaslı gəlir vergisi güzəştinin tətbiq edilməsi təşkil edir. Bu biznes imkanlarını daha da genişləndirəcək, işgüzar fəallığa öz müsbət təsirini göstərmiş olacaqdır.

Sonda bildirmək istəyirəm ki, müzakirəyə təqdim olunan qanun layihəsi mövcud iqtisadi reallıqlara hesablanan və inkişaf edən çağırışlara adekvatdır və onun qəbul edilməsi məqsədəuyğundur.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsində 2

maddə var. Mən onları bir-bir səsə qoyuram. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Sözü komitənin sədri Azər Əmiraslanova verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli xanım sədr. Təqdim edilmiş qanun layihəsi ilə bağlı birinci oxunuşda geniş məlumat verilmişdir.

Bir daha xatırlatmaq istərdim ki, bu qanun layihəsi qeyri-qida mallarının, məhsullarının ölkəyə gətirilməsi zamanı gömrük orqanlarına texniki təhlükəsizlik və texniki reqlamentlər üzrə nəzarəti həyata keçirmək üçün hüquqi əsaslar yaradır. Bu layihənin də ikinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik. Səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb, ona görə də səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 3 maddədən ibarətdir. 1-ci maddəyə, xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Mən 3-cü maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 11-ci məsələsinə keçirik. Bu, "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, buyurun, söz yenə də Sizindir, məlumat verin.

**Azər Əmiraslanov**. Çox sağ olun, hörmətli xanım sədr. Təqdim olunan bu qanun layihəsinin əsas mahiyyəti onunla bağlıdır ki, dövlət satınalmalarında əvvəllər avans və ya icra təminatı tələb olunurdu. Bu qanunvericiliyə dəyişikliklər etməklə xarici təchizatçılara münasibətdə satınalmalar üzrə artıq avans təminatı üzrə istisnalar tətbiq edilə bilər. Bunun üçün xüsusi qaydada aidiyyəti satınalma komissiyası nəzarət qurumları ilə birlikdə bu istisnanın məqsədəuyğunluğu məsələsinə baxa bilər. Hörmətli xanım sədr, bir məlumatı da bildirmək istərdim ki, "Dövlət satınalmaları haqqında" Qanun 2023-cü il iyulun 14-də qəbul edilmiş və 2024-cü il yanvarın 1-dən tətbiq olunmağa başlamışdır. Artıq qanunun həyata keçirilməsindən 2 ildən artıq vaxt keçir və bu müddət ərzində aidiyyəti dövlət orqanı – bu sahədə dövlət siyasətini həyata keçirən qurum həmin dövr ərzində satınalmalarla bağlı bu qanunun tətbiqi təcrübəsini öyrənmiş, araşdırmışdır. Təbii ki, satınalmalara çoxsaylı iştirakçılar qatılır – sifarişçilər, satınalan təşkilatlar və sair. Onların bütün təklifləri, müraciətləri

nəzərə alınmaqla “Satınalmalar haqqında” Qanunun təkmilləşdirilməsi məqsədəuyğun hesab edilib. Bu prosesdə 45 dövlət orqanı iştirak etmişdir.

Ötən müzakirələrdə bizim hörmətli həmkarımız Rəşad Mahmudov tərəfindən bəzi fikirlər səsləndirilmişdi. Düzdür, o, qanun layihəsini dəstəkləməsi ilə bağlı mövqeyini bildirmişdi, ancaq eyni zamanda, Səhiyyə Nazirliyinin, üzr istəyirəm, səhiyyə sisteminin, bütövlükdə, xüsusiyyətlərinin dövlət satınalmalarında nəzərə alınmasının vacibliyi ilə bağlı fikirlərini səsləndirmişdi. Təbii ki, nə qədər ayrı-ayrı sahələrin xüsusiyyətləri nəzərə alınarsa, bu, satınalmaların özünün də səmərəliliyini təmin edə bilər, amma eyni zamanda, biz onu da nəzərə almalıyıq ki, satınalmaların özünün ümumi təməl prinsipləri var. Həmin prinsiplər də aidiyyəti üzrə bütün sahələr və iştirakçı qurumlar tərəfindən nəzərə alınmalıdır.

Həm də səhiyyə sistemi üzrə satınalmaların həyata keçirilməsi zamanı meydana çıxan xüsusiyyətlər, özəlliklər yeni bir qanun layihəsində nəzərə alınacaq. Hesab edirik ki, yaxın zamanlarda o layihə də təqdim ediləcəkdir.

Təqdim etdiyimiz layihənin ikinci oxunuşda da qəbul edilməsini məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Rəşad müəllim burada yoxdur, bu gün iclasda deyil. Fərid müəllim, çatdırarsınız ki, sonra Rəşad müəllim elə Azər müəllimlə danışsın. Çox sağ olun.

Hörməti həmkarlar, biz bu qanunun ikinci oxunuşu ilə bağlı ətraflı məlumatı dinlədik. Qanun layihəsinə əsas kimi səs verməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 105
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik, yazılan var. Müşfiq Məmmədli. Mən təklif etmək istəyirəm, 5 dəqiqəyə keçək. Hamı razıdır? Səsə qoymağa ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Müşfiq müəllim, 5 dəqiqəyə qədər. Buyurun.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirə etdiyimiz qanun layihəsi ilk baxışdan texniki xarakter daşısa da, əslində, dövlət satınalmalarının səmərəliliyinin artırılması və xüsusilə xarici təchizatçılarla bağlanan müqavilələrin icrasında yaranan hüquqi boşluğun aradan qaldırılmasına xidmət edir. Buna görə də layihənin konsepsiyasını dəstəkləyirəm.

Bildiyimiz kimi, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, bəzi hallarda xarici şirkətlərdən yüksək texnologiyalı tibbi avadanlıqlar, proqram təminatı, xüsusi təyinatlı məhsullar və digər strateji əhəmiyyətli mal və xidmətlər əldə edirlər. Bu satınalmaların bir hissəsi eyni mənbədən həyata keçirilir və həmin məhsulların alternativi olmur. Lakin praktikada belə hallarla rastlaşırıq ki, xarici təchizatçı öz ölkəsinin qanunvericiliyi və ya daxili korporativ qaydaları səbəbindən Azərbaycan qanunvericiliyində nəzərdə tutulan icra və ya avans təminatını təqdim edə bilmir. Mövcud qanunvericilikdə isə belə hallarda heç bir istisna halları nəzərdə tutulmadığından, dövlət xəzinədarlığı ödənişləri həyata keçirə bilmir və nəticədə müqavilələrin icrası gecikir. Bu baxımdan təqdim olunan dəyişiklik dövlətin maraqlarına xidmət edir və praktiki problemlərin həllinə yönəlib.

Bununla yanaşı, ikinci oxunuş mərhələsində layihənin konsepsiyasını dəyişmədən onun tətbiqini daha şəffaf və hüquqi cəhətdən daha dəqiq etmək məqsədi ilə bir neçə redaksiya xarakterli təklifimi diqqətinizə çatdırmaq istəyirəm.

İlk növbədə, hesab edirəm ki, qanunda 49.4-1 maddəsində işlədilən "mümkünsüzlük müəyyən edildikdə" ifadəsi daha da konkretləşdirilməlidir. Çünki "mümkünsüzlük" anlayışı müxtəlif cür şərh oluna bilər. Məqsədəuyğun olardı ki, bu obyektiv səbəblərlə, məsələn, xarici dövlətin qanunvericiliyi, beynəlxalq öhdəliklər və ya təchizatçının hüquqi statusu ilə əlaqədar olduğu üçün qanunun mətnində daha aydın ifadə olunsun.

İkinci məsələ qərarların əsaslandırılması ilə bağlıdır. Layihədə maddə 44.4-2-də sadəcə qərarın qəbul edilməsindən bəhs olunur. Hesab edirəm ki, "əsaslandırılmış qərar" ifadəsinin əlavə edilməsi həm qərar qəbul edən orqanın məsuliyyətini artıracaq, həm də gələcəkdə mümkün subyektiv yanaşmaların qarşısını alacaqdır.

Üçüncüsü, bu mexanizmin yalnız müstəsna hallarda tətbiq olunması qanunun mətnində ayrıca vurğulana bilər. Çünki söhbət ümumi qaydanın dəyişdirilməsindən deyil, yalnız obyektiv səbəblər olduqda tətbiq ediləcək istisna mexanizmindən gedir.

Eyni zamanda, hesab edirəm ki, təklif verən qurumun müraciəti də əsaslandırılmış olmalı, mümkün risklər əvvəlcədən qiymətləndirilməlidir. Bu yanaşma, həm dövlət maliyyə maraqlarının qorunmasına, həm də sonradan audit və nəzarət baxımından hüquqi müəyyənliyin təmin olunmasına xidmət edər.

Hörmətli həmkarlar, bu layihə dövlət vəsaitlərinin qorunması ilə dövlət ehtiyaclarının vaxtında təmin olunması arasında düzgün balans yaratmağa

yönəlmiş mühüm dəyişiklikdir. Bu səbəbdən qanun layihəsini dəstəkləyir, eyni zamanda, qeyd etdiyim təkliflərin də nəzərə alınmasını xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, səsverməyə keçirik, birinci maddələr üzrə səs verməliyik. Qanun layihəsi 4 maddədən ibarətdir və mən onları iki-iki səsə qoyacağam.

İndi xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə mən 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| --- | --- |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 11 məsələ qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Mən həmişə olduğu kimi, xahiş edirəm, çıxış edərkən birinci oxunuşun tələblərini də nəzərə alasınız.

Qeyd edim ki, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. 12-ci məsələ Toxumçuluq haqqında qanun layihəsidir, 13-cü məsələ isə “Seleksiya nailiyyətləri haqqında” Qanunda və digər üç qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Hörmətli həmkarlar, bu iki məsələ və sonrakı beş məsələ ilə əlaqədar bizim dəvət etdiyimiz hörmətli qonaqlarımız var. Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavinləri İlhamə xanım Qədimova, Zaur Əliyev və Seymur Səfərli burdadırlar. Hamınız xoş gəlmisiniz. Məndə olan məlumata görə, Qida Təhlükəsizliyi Agentliyindən bu gün qonaq yoxdur. Bizim səhvimizdir. Bizim səhvimiz deyəndə, komitənin səhvidir. Düzgün vaxt deyilməyib onlara, elədir, Tahir müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Düzgün vermisiniz? Yaxşı.

Hörmətli həmkarlar, mən təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, daha sonra onları birlikdə müzakirə edək.

Səsvermələr isə həmişə olduğu kimi, biz hər bir qanun layihəsinə ayrılıqda səs veririk. Hörmətli həmkarlar, nəzərinizə çatdırım ki, qanun layihələrinə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri çox hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev**, *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlarım və media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən kənd təsərrüfatı sahəsində həyata keçirilən hər bir islahat, qəbul edilən hər bir dövlət proqramı inqilabi yenilikdir və bunlar aqrar sektorun inkişafında mühüm rol oynayır. Bu islahatlar ölkənin iqtisadi qüdrətinin artırılmasına, ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına xidmət edir.

Son illərdə kənd təsərrüfatının inkişafına göstərilən qayğı və diqqət sahibkarlığın vüsətinə, ixrac artımına, keyfiyyətli məhsul istehsalına, ərzaq təhlükəsizliyinin təminatına geniş imkanlar yaradır.

Cənab İlham Əliyevin bu il may ayının 25-də kənd təsərrüfatı məsələlərinə həsr edilmiş müşavirədəki çıxışında “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nda qarşıya qoyulan mühüm vəzifələr aqrar sektora yeni qayğı və diqqətin təzahürüdür. Aqrar sektorun hüquqi bazasının bir daha möhkəmləndirilməsini, daha təkmil qanunların qəbul edilməsini zərurətə çevirir.

Bildirmək istəyirəm ki, 11 mart 1997-ci ildə qəbul olunmuş “Toxumçuluq haqqında” Qanun keçən dövr üçün xarakterik olsa da, müasir zaman, ölkənin iqtisadi-sosial inkişafı, aqrar sektorda baş verən

dəyişikliklər və tələblər bu gün təqdim olunan yeni qanun layihəsini reallaşdırmışdır. Çünki sertifikatlı, rayonlaşdırılmış, təbii şəraitə, quraqlığa və xəstəliyə dözümlü super elit və elit toxum sortları əldə etmədən qarşıya qoyulan hədəflərə çatmaq mümkün deyildir. Dövlət Proqramında göstərilir ki, hazırda toxumçuluq sahəsində normativ hüquqi bazanın və keyfiyyətə nəzarət mexanizminin beynəlxalq standartlara uyğunlaşdırılmasına, seleksiya və idarəetmə sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.

Təqdim olunan Toxumçuluq haqqında yeni qanun layihəsi dövrün tələblərini özündə əks etdirməklə, Azərbaycan Respublikasında toxumun istehsalı, emalı, tədarükü, saxlanılması, daşınması, ticarət dövriyyəsi, idxalı və ixracı, sertifikatlaşdırılması və keyfiyyətinə nəzarətlə bağlı yaranan münasibətləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən subyektlərin və dövlət orqanlarının fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində bitkiçilik məhsullarının istehsalı xüsusi yer tutur və bunun üçün yüksək məhsuldarlığa, sabit irsi əlamətlərə malik, zərərli orqanizmlərə və müxtəlif iqlim amillərinə dözümlü bitki sortlarının yetişdirilməsi, fermerlərin keyfiyyətli toxumla təminatı həlledici əhəmiyyətə malikdir.

Keyfiyyətli və məhsuldar toxum istehsalı sərf olunan xərclərin azaldılması, bitkiçilik məhsullarının iqtisadi səmərəliliyinin artırılması, idxala sərf olunan vəsaitin ölkədə qalması, ən başlıcası məhsul bolluğunun yaradılması və sahibkarın maddi vəziyyətinin yaxşılaşması deməkdir.

Bu qanun layihəsində “Anlayışlar” sistemi xeyli təkmilləşdirilmişdir. Tənzimləmə və nəzarət mexanizmləri aydın göstərilmiş, sahənin obyektlərinin və subyektlərinin dairəsi dəqiqləşdirilmişdir. Eyni zamanda, layihədə “toxumun keyfiyyətinə nəzarət və sertifikatlaşdırma prosesi”nin

beynəlxalq təcrübəyə uyğunlaşdırılması nəzərdə tutulur. Toxum müfəttişlərinin səlahiyyət və vəzifələri, habelə toxumun emalı, məhv edilməsi, qablaşdırılması və etiketləşdirilməsi prosesləri dəqiq müəyyən edilir.

Qanun layihəsində əksini tapan yeniliklərdən biri toxumçuluq sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatının elektron şəkildə aparılmasıdır. Bu da prosesin operativliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Elektronlaşma aidiyyəti şəxslərə sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatlı toxumlar, habelə onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumat almaq imkanı yaradacaqdır.

Yeni qanun layihəsi rəqabət mühitinin formalaşmasına da yol açır və toxumçuluq sahəsinin iqtisadi əsaslarını yeniləyir. Əvvəlki qanuna əsasən yüksək nəsilli toxumlar kvota əsasında istehsal edilib bazar iqtisadiyyatı şəraitində rəqabəti əngəlləyirdisə, artıq bu maneə aradan qaldırılır. Yüksək nəsilli orijinal və elit toxumların istehsalına özəl sektor da cəlb edilir. Bu da rəqabət mühiti yaratmaqla, özəl seleksiyanın və ilkin toxumçuluğun inkişafına imkan verəcəkdir.

Keyfiyyət baxımından kənd təsərrüfatı təyinatlı bitki sortlarının toxumlarının kateqoriyaları beynəlxalq standartlara uyğunlaşdırılır. Artırılma mərhələsindən asılı olaraq orijinal, elit və sertifikatlı toxum kimi müəyyən edilir. Sertifikatlaşdırılmış toxumların etiketində toxuma aid tam və detallı məlumatların əks olunması tələbi isə marketinq sahəsinin inkişafına xidmət edir.

Eyni zamanda, hüquqi və fiziki şəxslərə yalnız öz əkin sahələrində təsərrüfat sınağı məqsədi ilə Dövlət Reyestrinə daxil edilməmiş bitki sortlarının toxumlarını idxal etmək imkanı verilməsi də yeni sortların

təsərrüfat şəraitində sınaqdan keçirilməsinə və yararlılığının qiymətləndirilməsinə əlavə şərait yaradır.

Qanun layihəsi aqrar sektorun dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərməklə, toxumçuluq sahəsində köklü islahatlara səbəb olacaq və bilavasitə ərzaq təhlükəsizliyinin təmin edilməsini, ölkədə kənd təsərrüfatı məhsullarının bolluğunun yaradılmasını əsas məqsəd kimi qarşıya qoyur. Dövlət bu sahədə özünün aydın proqramını şərh edir və qarşıda duran vəzifələri istiqamətləndirir.

Təqdim olunan layihədə toxumçuluğun məqsəd və prinsipləri, bu sahədə dövlət tənzimlənməsi və nəzarəti, dövlət dəstəyi, toxumçuluğun maliyyələşdirilməsi, təşkili, toxum əməliyyatçılarının vəzifələri və hüquqları, toxumların sertifikatlaşdırılması, toxumçuluq fəaliyyəti haqqında aydın, əsaslandırılmış müddəalar əks olunmuşdur. Qanun geniş və əhatəlidir. Müasir dövrün reallıqlarına uyğundur və aqrar sektorun inkişafında toxumçuluğun vacib və əhəmiyyətli bir sahə olduğunu, ən başlıcası dövlətimizin, ölkəmizin rəhbərinin kənd təsərrüfatına qayğı və diqqətini özündə ehtiva edir.

Bu qanun layihəsi Aqrar siyasət komitəsinin 2026-cı il 25 may tarixli yığıncağında geniş müzakirə olunub. Müzakirələrdə Kənd Təsərrüfatı Nazirliyinin məsul əməkdaşları, eləcə də digər mütəxəssislər iştirak edirdilər, çox dəyərli fikirlər söylənildi və qanun layihəsi dəstəkləndi, Milli Məclisin plenar iclasına tövsiyə edilməsi məsləhət bilindi.

Hörmətli həmkarlar, mən birinci oxunuşun tələblərinə uyğun olaraq, Toxumçuluq haqqında qanun layihəsinin mahiyyəti və əhəmiyyəti barədə sizə qısa məlumat verdim. Əlbəttə ki, ikinci oxunuşda qanunun fəsilləri, ayrı-ayrı maddələri haqqında da ətraflı söhbət açılacaq, müəyyən düzəlişlər

və əlavələr təklif olunacaqdır. Odur ki, sizdən birinci oxunuşun tələblərinə uyğun olaraq, bu vacib qanuna münasibət bildirməyi xahiş edirəm.

Diqqətinizə görə çox sağ olun.

*İclasa Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini* ***Əli Əhmədov*** *sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Müzakirə olunan 3-cü qanun layihəsi ilə əlaqədar İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi var. Rəyi səsləndirmək üçün mən komitənin sədr müavini Azər Badamova söz verirəm. Buyurun, Azər müəllim.

**Azər Badamov.** Çox hörmətli Əli müəllim, hörmətli həmkarlar, müzakirə etdiyimiz qanun layihəsi Toxumçuluq haqqında yeni qanunun tədbiqinin təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Aqrar siyasət komitəsinin sədri hörmətli Tahir Rzayev həmin sənədi geniş təqdim etdi. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin profilinə uyğun olaraq, qeyd etmək istəyirəm ki, layihə ilə seleksiya nailiyyətləri, toxum əməliyyatçıları və toxumçuluq əkinləri barədə məlumatların elektron reyestrdə aparılması, toxum əməliyyatçılarının qeydiyyatı və toxumların sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatların verilməsi üzrə dövlət rüsumlarının müəyyən edilməsi, habelə toxum əməliyyatçılarının qeydiyyatına dair reyestrdən çıxarışın sahibkarlıq fəaliyyəti üçün təqdim olunan icazələr siyahısına daxil edilməsi nəzərdə tutulur. Komitənin rəyinə görə, qanun layihəsi toxumçuluq sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə, rəqəmsal idarəetmənin genişləndirilməsinə, şəffaflığın və izlənilmənin artırılmasına, eyni zamanda, ölkədə toxumçuluq sisteminin daha səmərəli təşkilinə xidmət edir.

Qeyd olanları nəzərə alaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsinin birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edir. Hörmətli həmkarlarımızdan layihəyə dəstək vermələrini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm. Biz qanun layihələrinin müzakirəsinə keçirik. Yazılanlar var. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli Əli müəllim, dəyərli millət vəkilləri. Toxumçuluq haqqında yeni qanun layihəsi Azərbaycanın ərzaq təhlükəsizliyinə, milli genefondun qorunmasına və iqtisadi müstəqilliyin gücləndirilməsinə xidmət edir.

Son illər dünyada baş verən müharibələr, pandemiya, iqlim dəyişiklikləri və beynəlxalq logistika böhranları bütün dövlətlərə bir həqiqəti yenidən xatırladır – ərzaq milli təhlükəsizlik məsələsidir. Hər bir qanunun ruhunu anlamaq üçün onun tarixi köklərinə qayıtmaq gərəkdir. Azərbaycanda toxumçuluq və seleksiya məktəbinin şanlı keçmişi var.

Sovet dövründə Ulu Öndər Heydər Əliyevin fundamental dövlət siyasəti nəticəsində Azərbaycan yüksək məhsuldarlığı olan yerli sortlar yaradan, onları qoruyan və bütün ittifaq miqyasında tanıdan aqrar mərkəzlərdən birinə çevrilmişdi. Dahi şəxsiyyət ikinci dəfə ölkədə hakimiyyətə qayıdandan az sonra paytaxtda silah səslərinin eşidildiyi bir şəraitdə – 1994-cü il martın 4-də keçirilən kənd təsərrüfatı müşavirəsində sual edirdi: deyin, görək Azərbaycanda nə vaxt 280 min ton pambıq yığılmışdır? Bu, 1960-cı illərdə olmuşdu. Sonra pambıqçılığın inkişafı üçün yeni torpaqlar mənimsənildi, suvarma sistemləri quruldu, təcrübə artırıldı və nəticədə pambıq istehsalı sabit olaraq 800 min tona çatdırıldı. Üzüm istehsalı 1 milyon 800 min ton, taxıl istehsalı 1 milyon 600 min ton təşkil edirdi. O üzüm bağlarını salmaq

üçün nə qədər əziyyət çəkdik. Tənək çubuqlarını Avropadan, Bolqarıstandan, Moldovadan, Krımdan gətirirdik.

Bəli, Ulu Öndərin tarixi çıxışı bir dövlət proqramı idi. O vaxt Azərbaycanın hər bölgəsi öz məhsulu ilə tanınırdı. Qubanın alması, Göyçayın gülöyşə narı, Lənkəranın çayı, Gədəbəyin ağçiçək kartofu, Şəkinin tütünü, Zaqatalanın fındığı, Muğanın taxılı, Sabirabadın bostan məhsulları uzun illər aparılan seleksiya işlərinin yerli genetik ehtiyatların qorunmasının və elmi toxumçuluğunun nəticəsi idi. Onlar dadına, ətrinə, qidalılıq dəyərinə, yerli iqlimə uyğunluğuna, xəstəliklərə davamlığına görə seçilirdilər. Təsadüfi deyil ki, ötən əsrin sonlarında Göyçay narının tinglərini ABŞ-a aparıb plantasiyalar salmışdılar.

Nə üçün uşaqlığımızın alması, pomidoru, qarpızı, yemişi, kartofu, soğanı əvvəlki dadını vermir? Yüksək məhsuldarlıq naminə keyfiyyəti və milli sortların genefondunu itiririk. Hibrid sortlar daha çox məhsuldardır, daşınmaya davamlıdır, eyni ölçüdə yetişir, uzun müddət xarab olmur, iri ticarət şəbəkələrinin tələblərinə uyğun gəlir. Əlbəttə, hər bir dövlət xaricdən aqro texnologiya idxal edir. Fransadan Amerikaya qədər toxumçuluq sahəsində qazanılan nailiyyətlərdən bəhrələnmək gərəkdir.

Bu qanun layihəsi yerli seleksiya məktəbinin bərpasına, toxumçuluq üzrə elmi institutların və təcrübə təsərrüfatlarının gücləndirilməsinə, azad edilən ərazilərdə müasir toxumçuluq və seleksiya mərkəzlərinin yaradılmasına, yerli sortların dövlət reyestrinin və milli genetik ehtiyatlarının mühafizəsinə xidmət edir. Xatırladaq ki, Azərbaycanın ümumi torpaq fondu 8,64 milyon hektardır. Onun 4,8 milyon hektarı kənd təsərrüfatına, 1,8 milyon hektarı isə əkinə yararlıdır. Göründüyü kimi, münbit torpaqlarımız qeyri-məhdud deyil, ona görə məhsuldarlığın əsas mənbəyi keyfiyyətli toxum, elm və müasir aqro texnologiyadır. 2025-ci ildə Azərbaycanda kənd

təsərrüfatı məhsullarının ümumi dəyəri 14 milyard manatdan artıq olub. Əhalisi ölkəmizə yaxın olan Belarus ötən il dünyanın 110 ölkəsinə 10 milyard dollardan artıq kənd təsərrüfatı və ərzaq məhsulları ixrac edib.

2024-cü ildə ölkəmiz qarğıdalı toxumu üzrə əsas tədarükçülərin Türkiyə və Serbiya olduğu 6,57 milyon dollar dəyərində 1,14 milyon kiloqram idxal həyata keçirib. 3,58 milyon dollar dəyərində 6,31 milyon ton kiloqram toxumluq kartof idxal olunub. Tədarükçülər də eynidir. Halbuki hər iki məhsulun ölkəmizdə əsrlərdən gələn genləri var. Norveçdə yerləşən “Svalbard” qlobal toxum anbarı hazırda 1,3 milyondan çox toxumun genetik ehtiyatlarını saxlayır. Gedib xalqımızın qədim toxum nümunələrini onlardan alıb ölkəmizə qaytarmaq gərəkdir ki, insanlarımızın ağız dadı özünə qayıtsın.

Milli Məclisin gündəliyindəki torpaqların birləşdirilməsinə dair 17-ci məsələ hazırkı layihə ilə səsləşir və dövlətimizin aqrar sferadakı mühüm iradəsini göstərir. Ola bilsin ki, kimsə kənd təsərrüfat təyinatlı torpaqların birləşdirilməsini sovet dövrünün kolxozlaşma siyasəti ilə müqayisə etsin. Lakin bütün faydalarına rəğmən kolxozlaşma hərəkatı xüsusi mülkiyyətin ləğvi və torpaqların dövlət nəzarəti altında kollektivləşdirilməsi üzərində qurulmuşdu. Təklif olunan layihələr isə tam əksinə xüsusi mülkiyyət hüququnu qorumaqla torpaq sahiblərinin razılığı və ekvivalent bazar dəyəri prinsipi üzərində qurulur. Əgər 2020-ci ildə biz ərazilərimizi azad etdiksə, indi həmin torpaqları əkib-becərməklə, qələbəmizi ərzaq suverenliyinə çevirməliyik.

Ona görə də qanun layihəsini ümumxalq əhəmiyyətli sənəd kimi alqışlayıram, ona səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli Əli müəllim, hörmətli deputatlar. Təqdim olunan qanun layihələri çox vacibdir. Bugünkü gündəlikdə olan məsələlər – 12-ci məsələdən 18-ci məsələyə qədər hamısı kənd təsərrüfatının inkişafına aid olan qanun layihələridir. Ona görə də təkrar vaxt almamaq üçün ümumi qaydada konseptual baxımdan bu məsələlərə öz münasibətimi bildirəcəyəm.

Təbii ki, burada qeyd olundu, Azərbaycanda kənd təsərrüfatının inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun ölkəyə ilk rəhbərliyi dövründə Azərbaycan bir sənaye ölkəsinə, geniş inkişaf etmiş kənd təsərrüfatı ölkəsinə çevrilmişdi. Ən yüksək məhsuldarlıq burada müşahidə olunurdu. Nəticə etibarı ilə bizim kəndlərimiz, şəhərlərimiz tamamilə simasını dəyişirdi, insanlar kifayət qədər gəlir əldə edirdi.

Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra da bu proseslər davam etdi. Birinci mərhələ torpaq islahatının həyata keçirilməsi idi ki, məhz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri işləyən zaman Ümummilli Lider ilk dəfə olaraq bu proqramı orada həyata keçirdi. Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra da bu davamlı etdirildi. Postsovet məkanında Baltikyanı ölkələrdən əvvəl Azərbaycanda torpaq islahatı həyata keçirildi ki, bu da kənd təsərrüfatının inkişafına çox böyük təkan verdi. İlk dəfə ictimai müzakirə keçirildi, ondan sonra qanun layihəsi Milli Məclisə təqdim olundu və digər dünya ölkələrinin – Almaniyanın, İsrailin təcrübələri öyrənildi. Burada deputatlarımız var ki, həmin proseslərdə iştirak ediblər. Nəticə etibarı ilə Azərbaycan kənd təsərrüfatında irəliyə çıxan ilk ölkələrdən oldu.

Mən xatırlayıram, o vaxt AXCP–Müsavat dövründə də bir kənd təsərrüfat müşavirəsi keçirildi. O vaxtkı prezident dedi ki, istəyirsiniz, məhsulu yığın, istəyirsiniz, yığmayın, özünüz bilərsiniz... Bir il ərzində neçə

illərlə Azərbaycanda yaradılmış kolxoz və sovxozların əmlakı, mal-qarası, emal müəssisələrinin əmlakı İrana satıldı və ölkədə illərlə keyfiyyətli məhsul istehsal edilən zavodlar, fabriklər darmadağın oldu.

Məhz 1993-cü ildən sonra Ümummilli Lider yenidən uğurlu siyasətini davam etdirdi, kənd təsərrüfatına böyük güzəştlər verdi, bircə torpaq vergisindən başqa digər vergilər ləğv edildi, lazımi yanacaq, gübrələr təmin olundu, əkin üçün hər hektara 50 manat pul ayırdı ki, vətəndaşlar öz sahələrini əksinlər. Aqroservislər yarandı və güzəştli qiymətlərlə kənd təsərrüfatına subsidiyalarla kömək olundu.

Nəzərə alsaq ki, bu gün bizi əhatə edən ölkələrin dördü də dünyaya, Yaxın Şərqə, Afrikaya kənd təsərrüfatı məhsulu idxal edən ölkələrdir. Rusiya, İran, İsrail, Ukrayna bu gün kənd təsərrüfat məhsulları yerinə bombalar, minalar, döyüş tankları ilə xatırlanır. Ona görə də Azərbaycan bu kənd təsərrüfatı sahəsində inkişafa ciddi şəkildə nəzarət etməlidir – həm ərzaq təhlükəsizliyinin qorunması, həm də ixrac məhsullarının artırılması üçün.

17-ci məsələyə dair bir fikrimi də qeyd edim. Zahid müəllim də burada toxundu. Ciddi bir məsələ var – dövlət torpağı var, bələdiyyə torpağı var. Özəl torpaqların isə 20 faizi həmin mülkiyyətçilər arasındakı yollara sərf olunur. Yəni kənd təsərrüfatına yararlı torpaqların 20 faizi hər bir bölgə ilə aradakı yola və su arxlarına sərf olunur. Torpaqlar birləşdirildikdən sonra bundan geniş şəkildə istifadə etmək olar.

Vacib bir məsələ isə odur ki, bundan sonra biz kənd təsərrüfatı kadrlarının yetişdirilməsinə böyük üstünlük verməliyik. Bizim institutlar məhz bu sahədə kadrların yetişdirilməsinə və hazırlanmasına hazır olmalıdırlar.

Qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli Əli müəllim. Hörmətli millət vəkilləri, bu gün müzakirə etdiyimiz qanun layihəsi qeyri-neft sektorunun prioritet istiqamətləri baxımından çox vacibdir. Mən hörmətli Tahir Rzayevə peşəkar və ətraflı təqdimatına görə təşəkkür edirəm və qanun layihəsi ilə bağlı bir sıra konseptual məqamlara diqqət çəkmək istəyirəm.

Qeyd olunduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı aqrar sektorun inkişafı ilə bağlı zəruri strateji istiqamətləri müəyyənləşdirdi. Dövlət başçımız tərəfindən təsdiq olunmuş dövlət proqramında növbəti 5 ildə bütün ölçülə bilən hədəflər müəyyənləşdirilib. Həmin hədəflərdən biri də məhz toxumçuluq üzrə həm hüquqi bazanın möhkəmləndirilməsi və formalaşdırılması, həm də bu sahədə məhsuldarlığın artırılması, xərclərin azaldılması və rəqabət qabiliyyətinin gücləndirilməsi istiqamətində addımların atılmasıdır. Dövlət proqramında bu sahədə həm uçot, həm idarəetmə sisteminin təkmilləşdirilməsi xüsusi qeyd edilmişdir. Müzakirə etdiyimiz qanun layihəsi bu istiqamətdə hüquqi bazanın formalaşmasına imkan verəcək. O baxımdan, qanun layihəsi konseptual olaraq toxumçuluq sahəsində idarəetmənin təkmilləşməsinə və eyni zamanda, məhsuldarlığın artmasına, rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edəcək.

Beynəlxalq təcrübə göstərir ki, ərzaq məhsullarının maya dəyərində toxum xərcliyi təxminən 10 faiz təşkil edir, daha orqanik məhsullarda isə bu rəqəm bir qədər də çoxdur. Bu ondan xəbər verir ki, toxumçuluğun inkişaf etdirilməsi, bir tərəfdən, kənd təsərrüfatı məhsulları üzrə xərclərin azalmasına, digər tərəfdən isə, məhsuldarlığın artmasına şərait yaradacaq.

Çünki istehsal hesabına toxumların əldə edilməsi və bununla bağlı yığımın formalaşması, nəticədə xərclərin minimallaşdırılması vacibdir.

Eyni zamanda, qlobal olaraq istehsal edilən buğdanın 15 faizə qədəri toxum üçün saxlanılır və kənd təsərrüfatı üzrə ixtisaslaşmış dövlətlərdə toxumluq buğdanın 85 faizə qədəri məhz yerli istehsal hesabına ödənilir. Son rəsmi statistikaya nəzər yetirsək, görərik ki, Azərbaycanda buğda ehtiyatı 3 milyon 343 min tondur. Bunun 1 milyon 649 milyon tonu yerli istehsaldır. Toxumluq buğda isə 111 min tondur. Bu ondan xəbər verir ki, toxumluq buğda ehtiyatları ilə, 3,3, istehsal ilə müqayisədə 6,7 faiz paya malikdir.

Tərəvəz məhsulları üzrə bu statistik rəqəmlərdən görünür ki, tərəvəz məhsulları üzrə ehtiyatımız 2 milyon 237 min milyon tondur, yerli istehsal 1 milyon 838 milyon tondur, toxum isə 1000 tondan bir az artıqdır. Göründüyü kimi, tərəvəz məhsulları üzrə toxum ehtiyatı ümumi istehsalın heç 1 faizinə çatmır.

Rəsmi statistikaya əsasən bostan məhsulları üzrə ehtiyat 495 min tona yaxındır. Bu məhsulların istehsalı da təxminən 490 mindir. Toxumluq məhsul isə cəmi 290 tondur.

Təbii ki, bu rəqəmlər praktik olaraq müzakirə etdiyimiz qanun layihəsinin əhəmiyyətini bir daha təsdiqləyir. Çünki qanun layihəsinin konseptual məqsədi toxum ehtiyatlarının yerli istehsal hesabına artırılması, idxalın azaldılmasına nail olunması, eyni zamanda, daha keyfiyyətli toxum ehtiyatlarının formalaşmasına nail olunmasıdır. Konseptual olaraq istehsalın genişləndirilməsi, idxalın azaldılması toxumçuluqda əsas hədəflərdən hesab olunur. Bu, nəticə etibarı ilə hüquqi bazanın möhkəmləndirilməsini tələb edir. Çünki istehsalın genişləndirilməsi və idxalın azaldılması, sadəcə, yerli istehsalın dəstəklənməsi deyil, eyni

zamanda, valyuta ehtiyatlarının ölkədən çıxarılmasının qarşısının alınması, eləcə də fermerlərin dayanıqlı şəkildə toxum ehtiyatları ilə təmin edilməsi baxımından çox vacibdir.

Mən də təbii ki, qanun layihəsini dəstəkləyirəm. Hörmətli həmkarlarımızdan qanun layihəsinə səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Müşfiq Cəfərov. Buyurun.

**Müşfiq Cəfərov.** Hörmətli Əli müəllim, hörmətli millət vəkilləri və hökumət üzvləri. Müzakirəmizə təqdim olunan qanun layihələri “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın tərkib hissəsi hesab edilir. İcrasını gözlədiyimiz bu proqram ölkəmizin postneft dövründə qeyri-neft sektorunun şaxələndirilməsi və regionların tarazlı inkişafı baxımından müstəsna strateji əhəmiyyət kəsb edir.

Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas hədəflərindən biri məhz ərzaq təhlükəsizliyinin təmin edilməsi və daxili bazarın idxaldan asılılığının minimuma endirilməsidir. Bu baxımdan, yeni beşillik dövlət proqramı aqrar sektorda ekosistemin formalaşdırılması üçün fundamental əsaslar yaradır. Lakin qanunvericilik orqanının nümayəndələri olaraq bizim əsas vəzifəmiz bu proqramın icra mexanizmlərinin təkmilləşdirilməsinə, normativ hüquqi bazanın gücləndirilməsinə və ayrılan dövlət vəsaitlərinin maksimum səmərə ilə idarə olunmasına öz töhfəmizi verməkdir. Proqramın effektivliyinin artırılması məqsədi ilə bir neçə konseptual təklifimi diqqətinizə çatdırmaq istərdim.

Birincisi, su resurslarının idarə edilməsində hüquqi və iqtisadi stimulların sinerjisidir. Qlobal iqlim dəyişikliyi fonunda ölkəmizdə su qıtlığı milli təhlükəsizlik müstəvisinə yüksəlmişdir. Dövlət proqramında müasir suvarma texnologiyalarının tətbiqi geniş yer tutur. Təklif edirəm ki, kənd təsərrüfatında sudan səmərəli istifadəni stimullaşdırmaq üçün diferensial aqrar su subsidiyası mexanizmi tətbiq edilsin. İnnovativ suvarma sistemlərini tətbiq edən və dövlət tərəfindən müəyyən edilmiş su limitindən qənaətlə istifadə edən təsərrüfatlara güzəştli maliyyə stimulları verilməli, bu sahədə qanunvericilik bazası sərtləşdirilməlidir.

İkincisi, aqrar kooperasiyanın təşviqi və şaquli inteqrasiyasıdır. Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının böyük əksəriyyəti kiçik və orta ailə təsərrüfatlarıdır. Onların təkbaşına qlobal bazarlarla rəqabət aparması, logistika və emal zəncirinə daxil olması qeyri-mümkündür.

Biz kooperasiya haqqında qanunvericiliyin yaratdığı imkanlardan istifadə edərək dövlət proqramının çərçivəsində regional emal və logistika xablarının qurulmasını sürətləndirməliyik. Fermer öz məhsulunu sahədə deyil, yarımfabrikat və ya hazır məhsul kimi bu hab mərkəzlərində satmağa təşviq edilməlidir. Bu, həm regionlarda məşğulluğu artıracaq, həm də daxili dəyər zəncirini möhkəmləndirəcəkdir.

Üçüncüsü isə, aqrar innovasiyaların transferi və insan kapitalının inkişafıdır. Yüksək texnologiyaların süni intellekt əsaslı aqronomluq proqramlarının kəndə inteqrasiyası üçün kadr potensialı həlledici faktordur. Dövlət proqramlarında elmi potensialın artırılması nəzərdə tutulsa da, bu biliklərin birbaşa tarlaya ötürülməsi üçün dövlət-aqrar konsaltinq şəbəkəsi institusional bir quruluş kimi fəaliyyət göstərməlidir.

Regionlardakı Dövlət Aqrar İnkişaf Mərkəzlərinin, yəni DAİM-lərin funksionallığı artırılmalı, onlar təkcə sənəd qəbulu deyil, həm də fermerə rəqəmsal savadlılığı aşılayan innovasiya mərkəzlərinə çevrilməlidir.

Hörmətli deputatlar, 2026–2030-cu illəri əhatə edən bu strateji sənəd Azərbaycan kəndinin modernləşmə xəritəsidir. İnanıram ki, səsləndirilən təkliflər proqramın alt fəaliyyət planlarında nəzərə alınarsa, icra prosesi daha da sürətlənəcək və ölkəmizin aqrar sənaye potensialı yeni pilləyə qalxacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar İskəndərov. Buyurun.

**Vüqar İskəndərov.** Hörmətli Əli müəllim, hörmətli həmkarlar və media mənsubları. Bu gün müzakirə etdiyimiz Toxumçuluq haqqında yeni qanun layihəsi ölkəmizdə aqrar sahənin inkişafına xidmət edən, müasir çağırışlara cavab verən və strateji əhəmiyyət daşıyan çox mütərəqqi bir sənəddir.

Bu gün bütün dünyada ərzaq təhlükəsizliyi artıq təkcə kənd təsərrüfatı məsələsi deyil, eyni zamanda, milli təşəkkül məsələsidir. Qlobal iqlim dəyişiklikləri, beynəlxalq bazarlarda baş verən proseslər və ərzaq təminatı ilə bağlı çağırışlar göstərir ki, keyfiyyətli toxum fondu dövlətlərin strateji üstünlüklərindən biridir.

Təqdim olunan qanun layihəsində toxumçuluq sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, suvarma sistemlərinin beynəlxalq standarta uyğunlaşdırılması, elektron qeydiyyat mexanizminin tətbiqi və sağlam rəqabət mühitinin formalaşması kimi mühüm yeniliklər öz əksini tapmışdır. Hesab edirəm ki, bu yanaşma həm fermerlərimizin işini asanlaşdıracaq, həm də yerli toxumçuluğun inkişafına, məhsuldarlığın artmasına və idxaldan asılılığın azalmasına mühüm töhfə verəcək.

Hörmətli həmkarlar, layihəni müzakirə edərkən regionlarımızın potensialını da xüsusi vurğulamaq lazımdır. Təmsil etdiyim Şəki rayonu ölkəmizin ən böyük taxılçılıq bölgəsidir. Şəkidə çalışan hər bir fermer yaxşı bilir ki, bu məhsulun əsası torpağa səpilən keyfiyyətli toxumdan başlayır. Məhz buna görə də, bu qanun, sadəcə, hüquqi sənəd deyil, həm də gələcək məhsuldarlığa, ərzaq təhlükəsizliyinə və kənd insanının rifahına qoyulan mühüm investisiyadır. Eyni zamanda, qanun layihəsinin özəl sektorun bu sahəyə daha fəal cəlb olunmasına təşviq edilməsi, rəqabət mühitinin gücləndirilməsi və yerli toxum istehsalının genişlənməsinə şərait yaradılması istiqamətində xüsusi əhəmiyyəti var. Çünki bu halda həm ölkədən valyuta axınının qarşısı alınacaq, həm də gələcəkdə Azərbaycanın toxum ixracı potensialının formalaşması tənzimlənəcəkdir. Əminəm ki, qanunun qəbulu aqrar sahədə həyata keçirilən islahatların daha da dərinləşməsinə və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir.

Güclü kənd təsərrüfatı güclü toxumdan başlayır, güclü toxum fondu isə güclü qanunvericilik tələb edir. Bu gün müzakirə etdiyimiz qanun məhz bu məqsədə xidmət edən müasir və mütərəqqi qanundur. Mən qanun layihəsini dəstəkləyir və hörmətli həmkarlarımızı da sənədin lehinə səs verməyə çağırıram.

Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov**. Çox sağ olun. Çox hörmətli Əli müəllim, hörmətli həmkarlar və dəyərli media təmsilçiləri. Bu gün olduqca vacib bir qanun layihəsi ətrafında fikirlərimizi sərgiləmiş oluruq. Çünki Toxumçuluq haqqında qanun layihəsi bir çox parametrlərinə görə məndən qabaq çıxış

edən hörmətli həmkarlarım da qeyd etdilər ki, istər qida təhlükəsizliyi baxımından, istərsə də aqrar sektorun inkişafı nöqteyi-nəzərindən vacibdir. Sözün əsl mənasında, günün tələblərinə cavab verə bilən, bir sıra vəzifələrin icra olunmasına, bütövlükdə, aqrar sektorun dayanıqlı inkişafına, toxumçuluq sektorunda köklü islahatların həyata keçirilməsinə və ölkəmizin aqrar sahədə yeni uğurlara imza atmasına səbəb ola biləcək bir qanun layihəsidir.

Bununla yanaşı, təbii ki, burada bir neçə məqam var, mən onlara diqqət çəkmək istəyirəm. Təmsil etdiyim dairədə – Nardaran qəsəbəsində və digər Bakı ətrafı qəsəbələrdə də bostançılıq, tərəvəzçilik, bağçılıq, gülçülüklə bilavasitə məşğul olan şəxslər vaxtaşırı bizimlə görüşən zaman toxumçuluq məsələsinə də toxunurlar. Daha keyfiyyətli toxum növləri ilə təmin olunmaq və nəticə etibarı ilə də, bütövlükdə, rəqabətə dözümlü kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə səbəb olacaq fondun yaradılmasını arzulayırlar. Bu baxımdan, düşünürəm ki, toxumçuluqla bağlı olan yeni yanaşma həm də bu sahə ilə məşğul olan fermer təsərrüfatlarının da diqqətinə, maraqlarına cavab verəcək, bu prosesin tamamilə yeni bir mərhələyə qədəm qoymağına səbəb olacaq.

Digər bir məsələ – mənim üçün də önəmli olan məsələ budur ki, istər-istəməz biz qonşu dövlətlərin təcrübəsinə diqqət yetiririk. Xüsusi ilə də MDB üzvü olan ölkələrdə biz görürük ki, toxumçuluq sahəsi sürətlə inkişaf etdirilir və bu sektorda çox fəal sürətdə təmsil olunan qeyri-hökumət təşkilatları var. Çoxsaylı assosiasiyaların, fondların, müxtəlif seleksiya işləri ilə məşğul olan subyektlərin maraqlarının və hüquqlarının qorunması ilə əlaqədar fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının kifayət qədər böyük bir şəbəkəyə və çevrəyə malik olduğunu görürük. Bizim də çoxsaylı qeyri-hökumət təşkilatlarımız var.

Düşünürəm ki, bizdə də gələcəkdə, ən azından Toxumçuluq haqqında qanun qəbul olunduqdan sonra onlar bilavasitə prosesdə yaxından iştirak edə biləcəklər. Biz bilirik ki, bölgələrdə aqrar sahədə həyata keçirilən islahatların uğuru həm də vətəndaş cəmiyyəti institutlarının bu prosesdə iştirakını zəruri edir. Bu sahədə təbliğat və təşviqat işlərini həyata keçirən qeyri-hökumət təşkilatları şəbəkəsinin formalaşmasında da bizim aidiyyəti dövlət qurumları dəstək göstərməlidir.

Eyni zamanda, burada bir vacib bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. 2026-cı il may ayının 25-də cənab Prezidentin rəhbərliyi altında keçirilən müşavirədə bununla bağlı çox vacib mesajlar dilə gətirildi. O mesajlarda da aqrar sektorun biz ayrı-ayrı sahələrinin inkişaf etdirilməsində qeyri-hökumət təşkilatlarının iştirakı qeyd olunurdu.

Nəticə etibarı ilə çox vacib və günümüzün tələblərinə cavab verə biləcək bir qanun layihəsidir. Mən bu qanun layihəsinə səs verəcəyəm.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxışlar başa çatdı. Biz qanun layihələrinin qəbul olunması üçün səsverməyə keçirik. İlk olaraq Toxumçuluq haqqında qanun layihəsinə münasibət bildirməyiniz xahiş olunur.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun qəbul olundu.

13-cü məsələ üzrə təqdim olunan qanun layihəsinə münasibət bildirməyiniz xahiş olunur.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| --- | --- |
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun da qəbul olundu.

Cənab Prezident tərəfindən təqdim olunan 14-cü və 15-ci məsələlər üzrə qanun layihələri mahiyyətcə bir-birinə yaxın olduğundan ənənəmizə görə təklif olunur ki, qanun layihələri birlikdə müzakirə olunsun. Təbii ki, səsvermə ayrılıqda olacaqdır.

1-ci qanun layihəsi – Balıqçılıq haqqında qanun layihəsi Aqrar siyasət komitəsində müzakirə olunub. Qanun layihəsini komitənin sədri Tahir Rzayev təqdim edir. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, Əli müəllim. Hörmətli deputatlar və media nümayəndələri, yeni dövr yeni reallıqlar yaradır və qarşıya müəyyən vəzifələr qoyur. Bunların yerinə yetirilməsi isə imkan və şəraitdən asılı olmaqla bərabər təşəbbüskarlıq, hadisələri qabaqlamaq, təşkilatçılıq bacarığı, uzaqgörənlik tələb edir.

Prezident cənab İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə qarşıya qoyulan vəzifələr, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın qəbulu ölkə rəhbərinin uzaqgörən siyasətinin

ifadəsidir. Dövrün reallıqlarından irəli gələn və bilavasitə, iqtisadi inkişafa, insanların rifahının yaxşılaşmasına yönəldilən digər sahələr kimi balıqçılıq da böyük potensiala malikdir. Balıqçılıq və akvakultura sektoru ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında, regionlarda məşğulluğun artırılmasında və ixracın yüksəldilməsində xüsusi rol oynayır. Dövlət proqramında bu sahənin inkişafına böyük əhəmiyyət verilir və bildirilir ki, son illərdə sektorda inkişaf imkanları genişlənsə də, balıq ehtiyatlarının qorunması, ekoloji tarazlığın saxlanılması, nəzarət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də normativ hüquqi bazanın beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində əlavə tədbirlərə ehtiyac vardır. Bu baxımdan da, balıqçılıq və akvakultura sahəsində normativ hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması vacib hesab edilir.

Bildirmək istəyirəm ki, qüvvədə olan “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu 1998-ci ildə qəbul edilmişdir və bu sahədə son illərdə baş verən mühüm dəyişiklikləri, texnoloji yenilikləri, ekoloji və beynəlxalq idarəetmə prinsiplərini özündə tam əks etdirmir.

Xəzər dənizində və daxili su hövzələrində bioloji resursların qorunması, onların səmərəli və dayanıqlı idarə olunması, eyni zamanda, bu ehtiyatların ölkənin ərzaq təhlükəsizliyinə, məşğulluğa və ixrac potensialına töhfə verməsi bu sahənin hüquqi tənzimlənməsində yeni yanaşmalara ehtiyac yaratmışdır. Bu baxımdan, təqdim olunan Balıqçılıq haqqında yeni qanun layihəsi balıqçılıq və akvakultura sahəsinin gələcəkdə daha dayanıqlı inkişafı üçün zəruri hüquqi baza rolunu oynayır.

Layihə hazırlanarkən beynəlxalq təcrübə öyrənilmiş, o cümlədən BMT-nin Ərzaq və kənd təsərrüfatı, Avropa İttifaqının, eləcə də Qara dəniz və

Xəzər hövzəsi ölkələrinin mövcud hüquqi aktları və prinsipləri təhlil edilərək yerli şəraitə uyğunlaşdırılmışdır.

Qanun layihəsi balıqçılıq və akvakultura sahəsində mövcud hüquqi tənzimlənmənin təkmilləşdirilməsinə, sahənin müasir tələblərə uyğunlaşdırılmasına, su bioresurslarının səmərəli istifadəsi və mühafizəsinin təmin olunmasına, bu sahədə hüquqi mexanizmlərin gücləndirilməsinə xidmət edir.

Əvvəlki qanundan fərqli olaraq bu qanun layihəsində “Anlayışlar” sistemi əsaslı dərəcədə təkmilləşdirilmiş, idarəetmə və nəzarət mexanizmləri müasirləşdirilmişdir.

Layihəyə əsasən balıqçılıq sahəsində idarəetmənin rəqəmsallaşdırılması, informasiya sistemləri vasitəsi ilə balıqçılıq subyektləri, istifadə edilən resurslar və dövriyyəyə daxil olan məhsullar üzrə məlumatların uçotu və izlənilməsi mexanizmləri yaradılır.

Balıq ehtiyatlarının istifadəsi üçün kvotaların elmi əsaslarla müəyyən edilməsi, ov icazəsinin verilməsində şəffaflıq, real monitorinq, elektron uçot sistemləri və məsafədən izləmə texnologiyalarının tətbiqi nəzərdə tutulur.

Eyni zamanda, balıqçı gəmiləri, balıq ovu alətləri və balıqçılıq infrastrukturu üzrə texniki tələblərin müəyyən edilməsi, onların uçotu və nəzarət sistemlərinin tətbiqi nəzərdə tutulur ki, bu da qanunsuz balıq ovunun qarşısının alınmasına və resurslardan səmərəli istifadəyə imkan yaradacaqdır.

Layihədə akvakultura fəaliyyətinin hüquqi tənzimlənməsi daha da təkmilləşdirilərək bu sahədə fəaliyyət göstərən subyektlər üçün qeydiyyat əsaslı icazə mexanizmi və biotexnoloji layihə sənədinin tətbiqi müəyyən edilir. Su hövzələrinin akvakultura məqsədi ilə istifadəsi, balıqçılıq təsərrüfatlarının hüquqi statusu, akvakultura obyektlərinin qeydiyyatı,

məhsuldarlığın tənzimlənməsi, eləcə də törədici balıqların və onların sürülərinin idarə olunması məsələləri normativ əsaslarla müəyyən edilir. Bu yanaşma Azərbaycanda həm intensiv, həm də ekstensiv akvakultura modellərinin tətbiqinə şərait yaradacaq, texnologiyaya əsaslanan, izlənilə bilən və məhsuldar təsərrüfatların formalaşmasını stimullaşdıracaqdır.

Balıq məhsullarının ticarət dövriyyəsinə daxil edilməsi prosesində şəffaflığın və nəzarətin artırılması məqsədi ilə məhsulların mənşəyi, növü, keyfiyyəti, həcmi və digər göstəricilər üzrə məlumatların elektron sistemdə qeydiyyata alınması və izlənməsi mexanizmi müəyyən olunur ki, bu da həm qida təhlükəsizliyinin təmin edilməsinə, həm də bazar münasibətlərinin tənzimlənməsinə xidmət edir.

Qanun layihəsi son nəticədə balıqçılıq və akvakultura sahəsində idarəetmənin təkmilləşdirilməsinə, su bioresurslarının dayanıqlı istismarına, biomüxtəlifliyin qorunmasına, daxili bazarda balıqçılıq məhsullarına tələbatın ödənilməsinə və ixrac potensialının artırılmasına, eyni zamanda, hüquqi məsuliyyətin real təsirinin gücləndirilməsinə yönəldilmiş vahid və bir-birini tamamlayan hüquqi əsas formalaşdırır.

Balıqçılıq haqqında qanun layihəsi sahənin inkişafına geniş imkanlar açır, dövlətin qayğı və diqqətini əks etdirir və iqtisadi inkişafı sürətləndirmək üçün yeni vəzifələr qarşıya qoymaqla normativ hüquqi baza yaradır.

Hörmətli Əli müəllim, bu qanun layihəsi  Aqrar siyasət komitəsinin iyunun 25-də keçirilən iclasında geniş  müzakirə olunub. İclasda Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri, Qida Təhlükəsizlik Agentliyinin rəhbər işçiləri, eləcə də digər orqanların əməkdaşları iştirak edirdilər. Qanun layihəsi geniş müzakirə olundu və müsbət qarşılandı. Ona görə mən də  deputat həmkarlarımdan bu qanun layihəsinə öz münasibətlərini bildirməyi xahiş edirəm.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsi ilə əlaqədar Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin rəyi var. Rəyi səsləndirmək üçün mən sözü Sadiq Qurbanova verirəm. Buyurun, Sadiq müəllim.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli həmkarlar, qanun layihəsi haqqında Tahir müəllim geniş məlumat verdi və bizim də komitənin rəyi var. Mən də onu çox qısa şəkildə çatdırım.

Bəli, mövcud qanun layihəsi 1998-ci ildə qəbul olunub. Son 27 ildə iqlim dəyişiklikləri, Xəzər dənizində baş verən ekoloji proseslər, rəqəmsal idarəetmə texnologiyalarının inkişafı, qlobal ərzaq təhlükəsizlik məsələləri və akvakulturanın sürətli inkişafı sahənin hüquqi bazasının yenilənməsini zəruri edir.

Bu gün dünyada istehlak olunan balıq məhsullarının yarıdan çoxu akvakultura hesabınadır. Azərbaycanda isə 2024-cü ilin statistikasına görə, ümumi balıq istehsalı 67 min ton olsa belə, akvakulturanın burada payı cəmi 347 tondur, yəni 0,5 faizdir. Digər statistikaya görə, ölkədə 100-ə yaxın orta və iri balıq yetişdirmə təsərrüfatları fəaliyyət göstərir. Yeni qanun bu sahənin genişlənməsinə, investisiyaların cəlb edilməsinə, istehsalın genişləndirilməsinə gətirib çıxaracaqdır.

Qanun layihəsinin əhəmiyyətini 3 istiqamətdə qiymətləndirmək olar. Birincisi, ərzaq təhlükəsizliyidir. Tahir müəllim bu haqda dedi.

İkincisi, iqtisadi inkişafdır. Burada layihə balıqçılıq və akvakultura sahəsində sahibkarlığın genişləndirilməsini, emal sənayesinin, logistikanın və regionlarda məşğulluğun artırılmasını təşviq edir.

Üçüncü istiqamət isə əsas məsələlərdən biri olan ekoloji təhlükəsizlikdir.

Layihədə iqtisadi maraqlarla ekoloji məsuliyyət arasında balans yaradılır. Nərə cinsli balıqların və digər qiymətli növlərin mühafizəsi, kürütökmə sahələrinin qorunması, digər növlərin qarşısının alınması, su hövzələrinin monitorinqi, meliorasiya ilə bağlı müasir hüquq mexanizmləri də bu qanun layihəsini müəyyən edir.

Qanunda dövlət siyasətinin əsas prinsipləri sırasında dayanıqlı istehsal, elmi əsaslarla kvotaların müəyyən edilməsi, rəqəmsal idarəetmə, biomüxtəlifliyin qorunması və akvakulturanın inkişafı xüsusi yer tutur.

Burada komitə olaraq diqqətimizi cəlb edən bir neçə statistikanı sizə çatdırmaq istəyirəm. Son 15 ildə göl və nohur balıqçılığı ilə məşğul olan kənd təsərrüfatı subyektlərinin sayı 93-dən 133-ə qədər yüksəlib ki, bu da 43 faiz artım deməkdir. Həmin dövrdə istehsal, – söhbət akvakulturadan gedir, – 423 tondan 347 tona enib. Bu faktlar göstərir ki, bu sahənin inkişafı üçün təkcə təsərrüfatların sayının artırılması kifayət etmir, müasir texnologiyalar və elmi idarəetmə, yeni istehsal modelləri də tətbiq olunmalıdır. Hesab edirik ki, gələcək mərhələdə akvakulturanın inkişafında əsas istiqamətlərdən biri Xəzər dənizinin Azərbaycan sektorunun imkanlarından daha səmərəli istifadə olunmasıdır. Bu yanaşma kənd təsərrüfatı təyinatlı torpaq ehtiyatlarına əlavə yük yaratmadan istehsalın genişləndirilməsinə şərait yarada bilər.

Nəticə etibarı ilə qanun layihəsi balıqçılıq sahəsindən müasir elmi əsaslara söykənən rəqəmsal və ekoloji məsuliyyət prinsiplərinə əsaslanan yeni idarəetmə modelini formalaşdırmağa şərait yaradacaqdır.

Komitəmiz bütün bunların vacibliyini vurğulayaraq qeyd etmək istəyir ki, biz bu qanun layihəsini məqsədəuyğun hesab edirik və dəstəklənməsini həmkarlarımızdan xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu blokdan olan digər sənədin – “Dövlət rüsumu haqqında”, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsinə keçirik. Bu qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov təqdim edəcək. Buyurun, Azər müəllim.

**Azər Badamov.** Çox hörmətli Əli müəllim və hörmətli həmkarlar. Müzakirəyə təqdim olunan “Dövlət rüsumu haqqında”, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş və plenar iclasa müsbət rəylə tövsiyə olunmuşdur.

Qanun layihəsi bundan əvvəl təqdim olunmuş “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn dəyişikliklərin həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır. Layihədə akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi ilə bağlı hüquqi mexanizmlərin təkmilləşdirilməsi nəzərə tutulur. Bu məqsədlə “Dövlət rüsumu haqqında” Qanuna dəyişiklik edilərək, akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu müəyyən edilir. Eyni zamanda, “Lisenziyalar və icazələr haqqında” Qanuna dəyişikliklə sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əlavə olunur.

Təklif olunan dəyişikliklər, akvakultura sahəsində dövlət nəzarətinin gücləndirilməsinə, su bioresurslarından istifadənin daha səmərəli və şəffaf

tənzimlənməsinə, fəaliyyət göstərən subyektlərin vahid hüquqi çərçivədə qeydiyyatının təmin edilməsinə xidmət edir. Hazırda balıqçılıq sahəsində təbii bioresurslardan istifadə icazə mexanizmi ilə tənzimləndiyi halda akvakultura fəaliyyəti, əsasən, qeydiyyat proseduru ilə məhdudlaşırdı. Yeni yanaşma isə bu sahədə nəzarətin qabaqlayıcı mexanizmlər əsasında həyata keçirilməsinə, mümkün risklərin əvvəlcədən müəyyən edilməsinə imkan yaradacaqdır.

Qanun layihəsi, akvakultura təsərrüfatlarının hüquqi statusunun dəqiqləşdirilməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və su bioresurslarının davamlı idarə olunması baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd olunanları nəzərə alaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsinin birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edir. Hörmətli həmkarlarımızı layihəyə səs verməyə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Müzakirələrə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm, Əli müəllim. Hörmətli həmkarlar və media nümayəndələri, müzakirə etdiyimiz Balıqçılıq haqqında yeni qanun layihəsini dəstəkləyirəm. Hesab edirəm ki, bu sənəd bir qədər gecikmiş olsa da, çox vacib bir addımdır. Etiraf etməliyik ki, son onilliklər ərzində ölkəmizdə balıq ehtiyatlarının qorunması sahəsində ciddi problemlər yaşanıb. Bəzi çaylarımızda, göllərimizdə və hətta Xəzər dənizində nəzarətsiz və qanunsuz ov nəticəsində təbii ehtiyatlar böyük zərbə alıb. Elə vəziyyət yaranıb ki, bəzən adama elə gəlir, sanki balıqlara qarşı “soyqırımı” həyata keçirilib.

Qanunsuz torlardan geniş istifadə olunur. Xırda gözlü torlarla hələ artıb çoxalmamış balıqlar da məhv edilib. Elektrik cərəyanı ilə balıq ovlanması kimi vəhşi üsullara əl atılıb, kimyəvi maddələrdən istifadə halları olub. Belə üsullar yalnız tutulan balığı deyil, bütün su ekosistemini məhv edir. Kürünü tökməyə hazırlaşan balıq da, yeni çıxmış körpə balıqlar da, su canlıları da eyni anda məhv olur. Təbiət isə bu itkiləri qısa müddətdə bərpa edə bilmir. Balıqçılıq yalnız iqtisadi fəaliyyət deyil, həm də ərzaq təhlükəsizliyi, biomüxtəlifliyin qorunması və gələcək nəsillərə qarşı məsuliyyət məsələsidir. Əgər bu gün balıq ehtiyatlarını qoruya bilməsək, sabah nə peşəkar balıqçıların dolanışığı qalacaq, nə də təbii sərvətlərimiz.

Qanun layihəsinin üstün cəhətlərindən biri odur ki, burada balıq ehtiyatlarının bərpası, elmi əsaslarla idarə olunması, akvakulturanın inkişafı, ov qaydalarının dəqiqləşdirilməsi və dövlət nəzarətinin gücləndirilməsi nəzərdə tutulur. Bunlar müsbət yanaşmalardır. Amma təkcə yaxşı qanun qəbul etməklə də iş bitmir və biz hamımız bunu bilirik. Əsas məsələ onun icrasıdır. Qanunsuz torlardan istifadə edənlər, elektrik cərəyanı ilə ov aparanlar, qadağan olunmuş dövrlərdə balıq tutanlar bilməlidirlər ki, cəza qaçılmaz olur. Nəzarət müasir texnologiyalarla gücləndirilməli, su hövzələri daha effektiv monitorinq olunmalı, ictimai nəzarət və maarifləndirmə də bu prosesin ayrılmaz hissəsinə çevrilməlidir.

Eyni zamanda, balıq ehtiyatlarının süni açılması proqramları da genişləndirilir və çaylara, göllərə buraxılan balıq körpələrinin də sayının artırılması nəzərdə tutulub. Su hövzələrinin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində də kompleks tədbirlər görülməlidir. Əgər biz bu qanunu ardıcıl və prinsipial şəkildə icra edə bilsək, təkcə balıq ehtiyatlarımızı bərpa etməyəcəyik, həm də gələcək nəsillərə daha sağlam

ekoloji mühit, daha zəngin təbii sərvətlər və dayanıqlı balıqçılıq təsərrüfatı miras qoyacağıq. Təşəkkür edirəm.

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Növbəti çıxış. Pərvanə Vəliyeva. Buyurun.

**Pərvanə Vəliyeva**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hökumət üzvləri və media nümayəndələri. Qanun layihəsinin ətraflı təqdimatı üçün hörmətli həmkarlarıma təşəkkürümü bildirirəm.

Müzakirə olunan qanun layihəsi həm də su bioresurslarının mühafizəsi üzrə hüquqi mexanizmləri müəyyən edir. Qanundan irəli gələn bir sıra ekoloji məsələlərə dair fikirlərimi bölüşmək istərdim.

Qanunda dövlətlərarası sərhədi müəyyən edən və ya onu kəsib keçən, yaxud üzərindən Azərbaycan Respublikasının dövlət sərhədi keçən yerüstü su obyektlərinin də balıqçılıq su obyektləri olması təsbit olunur. Transsərhəd su axınlarının mühafizəsi ölkəmizdə beynəlxalq hüquq normaları ilə ciddi şəkildə tənzimlənir. Transsərhəd təsir müəyyən edilərsə, beynəlxalq müqavilələrə uyğun tədbirlər görülür və monitorinq sistemi vasitəsi ilə çirklənmənin qarşısının alınması üçün tədbirlər həyata keçirilir. Praktikada isə hər bir konkret hal üçün müvafiq icra hakimiyyəti orqanlarının razılığı, monitorinq və qonşu dövlətlərlə əməkdaşlıq əsas şərtdir.

Azərbaycan Respublikası sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında BMT-nin 1992-ci il Konvensiyasına və onun “Su və sağlamlıq haqqında” Protokoluna qoşulmuşdur. Həmin sənədlər transsərhəd su axınlarının çirklənməsinin qarşısının alınması, monitorinqi, qonşu ölkələrlə məlumat mübadiləsi və

birgə tədbirlərin görülməsi üzrə öhdəliklər müəyyən edir. Lakin Ermənistan nə bu konvensiyaya, nə də onun protokoluna imza atmışdır.

Azərbaycanın şirin su ehtiyatlarının 70 faizi ölkəmizdən kənarda formalaşır və məhz transsərhəd çaylar vasitəsi ilə ölkəmizə daxil olur. Ona görə ölkəmizin su təhlükəsizliyi regional hidroloji vəziyyətlə sıx bağlıdır. Bəzi transsərhəd çaylarımız Ermənistan ərazisində mədənçilik fəaliyyəti nəticəsində kimyəvi çirklənməyə məruz qalır. Təsisçisi olduğum koalisiya da bu sahədə davamlı araşdırmalar aparır və ictimaiyyəti məlumatlandırır.

Transsərhəd su axınlarının çirkləndirilməsi həm də su biomüxtəlifliyinin məhvinə gətirib çıxarır ki, bu, BMT-nin Ətraf muhit üzrə proqramının 2022-ci ildə işğaldan azad olunmuş ərazilərə dair ekoloji qiymətləndirmə missiyasının hesabatında qeyd olunan Oxçuçaydan kütləvi ölü balıqların tapılması faktı ilə də təsdiq edilir.

Qanunun VII fəslində yalnız Xəzər dənizində və xarici dövlətlərin su hövzələrində su bioresurslarının mühafizəsinə dair beynəlxalq əməkdaşlıq qeyd olunur. Lakin qanunun V fəslində dövlətlərarası sərhədi müəyyən edən və ya sərhədi kəsib keçən, yaxud üzərindən Azərbaycan Respublikasının dövlət sərhədi keçən yerüstü su obyektləri də balıqçılıq su obyektləri kimi təsbit olunur. Belə olan halda, V fəsildə adları qeyd olunan bu su obyektlərinin mühafizəsinə dair də beynəlxalq əməkdaşlıq VII fəsildə öz əksini tapmalıdır. Yəni Ermənistan sözü gedən konvensiyaya qoşulmasa belə və ya transsərhəd kontekstində BMT-nin Espoo Konvensiyasının tələblərini yerinə yetirməsə də, biz bu əməkdaşlığı qanunda nəzərə almalıyıq. Milli qanunvericiliyimizdə həm də su obyektlərinin çirkləndirilməsi qadağan edilir, pozuntulara görə inzibati və cinayət məsuliyyəti tətbiq olunur.

2024-cü ildə Cinayət Məcəlləsinə “ekosid” anlayışı gətirilib. Təklif edirəm ki, bu qanundan irəli gələcək müvafiq məsuliyyətlər müəyyən olunan zaman məhz transsərhəd su axınlarının və su bioresurslarının məhv edilməsinə dair məsuliyyət də müəyyən edilsin.

Ermənistanda mədənçilik fəaliyyəti ilə məşğul olan şirkətlər transsərhəd su ekosistemlərinin məhvinə səbəb olur və gələcəkdə bu şirkətlərə qarşı qaldırıla biləcək iddialarda bu müddəa faydalı ola bilər. Bütün bunların fonunda Ermənistanın biomüxtəliflik üzrə COP17-yə ev sahibliyi etməsi də əlavə suallar doğurur.

Qanunda Xəzər dənizinin bioloji resurslarının qorunmasına dair də hüquqi çərçivə müəyyən olunub. Cənab Prezident İlham Əliyev bu barədə mötəbər beynəlxalq platformalarda hər zaman vurğulayır, eyni zamanda, hörmətli Leyla xanım Əliyevanın təsis etdiyi IDEA İctimai Birliyi tərəfindən Xəzərin bioresurslarının mühafizəsinə mütəmadi diqqət çəkilir.

Layihənin qəbul olunmasını vacib hesab edirəm, dəstəkləyirəm, səs verəcəyəm, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Pərvanə xanım.

Vasif Qafarov. Buyurun, Vasif müəllim.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Balıqçılıq haqqında Azərbaycan Respublikası qanununun layihəsi balıqçılıq sahəsində münasibətlərin vahid hüquqi çərçivədə tənzimlənməsi və bu sahədə dövlət idarəetməsinin müasir prinsiplər əsasında formalaşdırılması baxımından müsbət qiymətləndirilməlidir.

Layihədə balıqçılıq fəaliyyətinin rəqəmsallaşdırılması, elektron su sisteminin yaradılması, kvota mexanizminin tətbiqi, dövlət nəzarətinin gücləndirilməsi, balıq ehtiyatlarının artırılması və mühafizəsinə yönəlmiş

tədbirlərin hüquqi əsaslarının müəyyən edilməsi bu sahənin inkişafı üçün mühüm normativ baza formalaşdırır.

Eyni zamanda, layihə beynəlxalq təcrübədə qəbul edilmiş dayanıqlı balıqçılıq prinsiplərini və ekoloji təhlükəsizliyin tələblərinin milli qanunvericiliyə inteqrasiyası baxımından da müsbət qiymətləndirilməlidir. Bununla yanaşı, layihənin tətbiqi zamanı hüquqi müəyyənliyin təmin olunması, normativ tənzimlənmənin daha səmərəli həyata keçirilməsi və gələcəkdə yarana biləcək hüquqi mübahisələrin minimuma endirilməsi məqsədi ilə bir sıra müddəaların təkmilləşdirilməsi də məqsədəuyğun olardı.

Layihədə balıqçılıq sahəsində informasiya sisteminin yaradılması nəzərdə tutulsa da, həmin sistemin hüquqi statusu, digər dövlət informasiya ehtiyatları ilə inteqrasiyası, məlumatların emalı, saxlanılması və mübadiləsinin hüquqi əsasları kifayət qədər əhatə edilməmişdir. Hesab edirəm ki, elektron idarəetmənin səmərəliliyinin təmin olunması məqsədi ilə balıqovlama biletlərinin, kvotaların, akvakultura qeydiyyatının, balıqçı gəmilərinin izlənməsi üzrə məlumatların və digər inzibati prosedurların tam elektron qaydada həyata keçirilməsi, eyni zamanda, sistemin aidiyyəti dövlət informasiya ehtiyatları ilə inteqrasiyası qanun səviyyəsində daha dəqiq müəyyən edilməlidir. Bu yanaşma inzibati prosedurların sadələşdirilməsinə, şəffaflığın artırılmasına və korrupsiya risklərinin minimuma endirilməsinə xidmət edəcəkdir.

Həmçinin layihədə iqlim dəyişikliklərinin balıq ehtiyatlarına təsiri ayrıca tənzimləmə predmeti kimi nəzərdə tutulmamışdır, halbuki qlobal iqlim dəyişiklikləri su ekosistemlərinin vəziyyətinə, balıq populyasiyalarının dinamikasına və bioloji müxtəlifliyə birbaşa təsir göstərən əsas amillərdəndir. Bu baxımdan, aidiyyəti dövlət orqanı tərəfindən dövri elmi

qiymətləndirmələrin aparılması, iqlim dəyişikliklərinin balıq ehtiyatlarına təsirinin qiymətləndirilməsi və balıq ovu kvotalarının həmin nəticələr nəzərə alınmaqla yenidən müəyyən edilməsi barədə ayrıca hüquqi mexanizmin layihədə təsbit olunması, hesab edirəm ki, məqsədəuyğun olardı.

Layihədə balıq ovu kvotalarının müəyyən olunması öz əksini tapsa da, kvotaların bölüşdürülməsi zamanı tətbiq ediləcək meyarlar, qərarların qəbuledilmə proseduru və şəffaflıq mexanizmləri kifayət qədər konkret müəyyən edilməmişdir. Bu isə gələcəkdə subyektiv yanaşmalara və korrupsiya risklərinə səbəb ola bilər. Bu baxımdan, kvotaların açıq elektron müsabiqə əsasında bölüşdürülməsi, qiymətləndirmə meyarlarının əvvəlcədən elan edilməsi, qəbul edilən qərarların ictimaiyyət üçün əlçatan olması və həmin qərarlardan inzibati qaydada şikayət edilməsi imkanlarının qanun səviyyəsində müəyyən olunması daha məqsədəuyğun olardı.

Ümumilikdə, qanun layihəsini konseptual yanaşmasına, hüquqi strukturuna və tənzimlənmə predmetinə görə sistemli və gələcəyə hesablanmış normativ hüquqi akt kimi qiymətləndirirəm. Layihədə əks olunan müddəalar balıqçılıq sahəsinin inkişafı üçün möhkəm hüquqi baza yaradır. Qeyd etdiyim təkliflərin nəzərə alınması da hesab edirəm ki, layihənin hüquqi keyfiyyətini, tətbiq səmərəliliyini və normativ dayanıqlılığını əhəmiyyətli dərəcədə yüksəldəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Yazılanlar hamısı çıxış etdi. Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, 14-cü məsələyə – Balıqçılıq haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz, buyurun.

**Səsvermənin nəticələri** (saat 12.54 dəq.)

| | |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

İndi isə mən 15-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bu, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, həm bu məsələ, həm də sonrakı iki məsələ ilə əlaqədar Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin sədr müavini Elşad Məmmədov da iclasımızda iştirak edir. Elşad müəllim, buradasınız? Xoş gəlmisiniz.

Hörmətli həmkarlar, qanun layihəsinə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Tahir müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun, Tahir müəllim, eşidirik Sizi.

**Tahir Rzayev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadə edilməsini, torpaq bazarında dövriyyənin aktivləşməsini, dövlət–vətəndaş arasında qarşılıqlı razılıq əsasında əmlak mübadiləsinin aparılmasını, iqtisadi fəallığın yüksəlməsini nəzərdə tutur.

Belə ki, dövlət mülkiyyətində olan torpaq sahələri qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan torpaq sahələri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təqdimatı əsasında, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın qərarı ilə dəyişdirilə bilər. Bu hallar qanunla özəlləşdirilməsi qadağan olunan və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə şamil edilmir. Alğı-satqı zamanı bazar qiyməti nəzərə alınır və "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanuna uyğun olaraq, qiymətləndirici tərəfindən həyata keçirilir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə də baxılmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Bu gün komitənin rəyini komitənin üzvü hörmətli Nurlan Həsənov bildirəcək. Buyurun, Nurlan müəllim.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu qanun layihəsi, hörmətli Tahir müəllimin də qeyd etdiyi kimi, dövlət mülkiyyətində olan əmlakın qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla dəyişdirilməsinin hüquqi əsasını müəyyən edir. Proses belə tənzimlənir ki, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan tərəfindən, yəni Əmlak Komitəsi

tərəfindən dövlət mülkiyyətində olan əmlakın xüsusi mülkiyyətdə olan əmlakla dəyişdirilməsi barədə təqdimat Nazirlər Kabinetinə verilir. Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla əmlakın dəyişdirilməsi barədə qərar verir. Qanun layihəsində hüquqi müəyyənlik, şəffaflıq və ədalətli qiymətləndirmə prinsipləri əsas götürülür. Bunları nəzərə alaraq layihə ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. İkinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin rəyini bildirmək üçün mən sözü komitə sədrinin müavini hörmətli Azər Badamova verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov.** Minnətdaram, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, qanun layihəsi qeyd olunduğu kimi dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahələrinin qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlak və ya torpaq sahələri ilə dəyişdirilməsinin hüquqi əsaslarının yaradılması məqsədi ilə hazırlanmışdır.

Təklif olunan dəyişikliklərə əsasən qanunla özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı, dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri və dövlət ehtiyacları üçün nəzərdə tutulan torpaqlar istisna olmaqla, dövlət mülkiyyətində olan əmlakın xüsusi mülkiyyətdə olan əmlakla dəyişdirilməsi mümkün olacaqdır. Layihə ilə dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsinin bazar qiymətləri nəzərə alınmaqla, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun tələblərinə uyğun həyata keçirilməsi nəzərə tutulur.

Bu isə əmlak mübadiləsi prosesində şəffaflığın və obyektivliyin təmin edilməsinə xidmət edəcəkdir. Eyni zamanda, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanuna edilən dəyişikliklərlə dövlət orqanları və bələdiyyələr də

qiymətləndirmə fəaliyyəti üzrə sifarişçi qismində müəyyən edilir. Bu dəyişiklik dövlət əmlakı ilə bağlı əməliyyatlarda qiymətləndirmə mexanizmlərinin daha səmərəli tətbiqinə imkan yaradacaqdır.

Qeyd olunanları nəzərə alaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsinin aidiyyəti müddəalarının birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edir və hörmətli deputatları layihəyə dəstək verməyə dəvət edir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, görürəm, müzakirəyə heç kimi yazılmayıb və ona görə də biz indi qanun layihəsinə birinci oxunuşda səs verəcəyik. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, saat 1-dir, əslində, bizim fasilə vaxtımızdır. Təklif nədir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Hamı razıdır? Oldu.

Deməli, hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bu, bizim gündəliyimizdə olan 17-ci məsələdir. Bu, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, “Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və

yer quruluşu haqqında" Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, yenə də buyurun, özünüz məlumat verin.

**Tahir Rzayev.** Hörmətli sədr, hörmətli deputat həmkarlar, iri təsərrüfatlarla müqayisədə kiçik təsərrüfatların özünü doğrultmaması, məhsuldarlığın aşağı olması, bəzi çətinliklərin yaranması həm dövləti, həm də sahibkarları ciddi düşündürür. Parçalanma torpağın əkin məqsədi ilə istifadəsini azaldır, texnikadan, sudan, təbii ehtiyatlardan, gübrə, toxum, digər aqrotexniki vasitələrdən səmərəli istifadəni çətinləşdirir və kənd təsərrüfatının inkişafını ləngidir.

Bu sahəyə dair xüsusi hüquqi tənzimlənmənin olmaması isə torpaqların konsolidasiyasının ölkə miqyasında tam həyata keçirilməsinin qarşısını aldığı üçün Torpaq Məcəlləsinə 12-2-ci maddə əlavə edilir. Həmin maddə torpaqların konsolidasiyasının kənd təsərrüfatı məqsədi ilə torpaq mülkiyyətçilərinin razılığı və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsi, bölünməsi, sərhədlərin yenidən müəyyən olunması, dəyişdirilməsi nəticəsində mülkiyyət hüquqlarının yenidən rəsmiləşdirilməsini müəyyən edir. Konsolidasiya müvafiq icra hakimiyyəti orqanının yaratdığı komissiyanın qərarı əsasında hazırlanan layihə ilə həyata keçirilir.

Dövlətin ehtiyacları üçün özəlləşdirilməsi halları istisna olmaqla, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin alğı-satqısı və özəlləşdirilməsi hallarında bölünmə nəticəsində yaranan hər bir torpaq sahəsinin ölçüsü 5 hektardan az olmaqla yol verilir.

Digər qanunlara edilmiş dəyişikliklər torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsini, konsolidasiya prosesinin texniki şərtlərini, torpaq bazarının tənzimlənməsini, daşınmaz əmlak üzərində hüquqların

dövlət qeydiyyatı üçün əsas olan sənədlər siyahısına əlavə edilməsini nəzərdə tutur.

Təqdim olunan qanun layihəsi kənd təsərrüfatında məhsuldarlığın artırılması, torpaqlardan səmərəli istifadə olunması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsul bolluğunun yaradılması, əhalinin kənddə möhkəmlənməsi baxımından çox əhəmiyyətlidir.

Hörmətli sədr, bu qanun layihəsi çox vacib bir qanun layihəsidir. Yerlərdə olarkən insanlar da belə bir prinsiplə çıxış edirlər ki, mütləq kiçik torpaq sahələri birləşdirilməlidir. Bundan əlavə, Milli Məclis "Kooperasiya haqqında" Qanun qəbul edib. Sözsüz, buna getməklə – iri təsərrüfatlar yaratmaqla biz gələcəkdə kənd təsərrüfatını inkişaf elətdirə bilərik.

Ona görə də bu qanunlar çox vacib sənədlərdir. Mən deputat həmkarlarımdan bu qanunlara öz münasibətlərini bildirmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Ayrı komitələrdə də baxılıb. Onları da dinləyək, sonra bir qərara gələrik.

Tahir müəllim, Siz dünən də bu qanunla bağlı çox ətraflı məlumat verdiniz. Yadımdadır ki, Əli Hüseynli də komitə adından məlumat verdi. Bu gün Nurlan müəllim komitənin rəyini bildirəcək. Sizin komitənizdə baxılıb? Hüquq siyasəti və dövlət quruculuğu komitəsində? Buyurun, məlumat verin. Nurlan Həsənov.

**Nurlan Həsənov**. Hörmətli xanım sədr, əslində, hörmətli Tahir müəllim layihənin predmeti barədə geniş məlumat verdi. Bu gün bu regionlarda tez-tez qarşılaşılan problemlərdən biridir. Layihənin məqsədi də məhz bu problemi hüquqi mexanizmlərlə həll etməkdir.

Layihənin əsas üstünlüyü burada olan könüllülük prinsipidir, torpaq sahələrinin konsolidasiyası yalnız mülkiyyətçilərin razılığı əsasında həyata

keçirilir, bazar dəyəri prinsipi qorunur, zərurət yarandıqda kompensasiya mexanizmi tətbiq edilir. Bu isə Konstitusiyamızda təsbit olunan mülkiyyət hüququnun toxunulmazlığı prinsipi ilə tam uzlaşır.

Təqdim olunan qanun layihəsi bu sahədə gələcəkdə yarana biləcək hüquqi mübahisələrin qarşısının alınmasına xidmət edir. Odur ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Yenə də hörmətli Azər Badamov məlumat verəcək. Buyurun, komitənin rəyini bildirin.

**Azər Badamov.** Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin profilinə uyğun şəkildə qısa olaraq qeyd etmək istəyirəm ki, qanun layihəsi ilə kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasının hüquqi əsaslarının yaradılması, torpaq sahələrinin könüllülük və ekvivalent bazar dəyəri prinsipi əsasında birləşdirilməsi, bölünməsi və yenidən təşkili mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Bu dəyişikliklər torpaq ehtiyatlarından daha səmərəli istifadə olunmasına, iri və məhsuldar təsərrüfatların formalaşmasına, aqrar sahədə investisiya imkanlarının genişlənməsinə və kənd təsərrüfatı istehsalının effektivliyinin artırılmasına xidmət edəcəkdir.

Eyni zamanda, torpaqların alğı-satqısı və vərəsəlik yolu ilə bölünməsi zamanı minimum ölçü tələblərinin müəyyən edilməsinə, torpaq sahələrinin həddindən artıq parçalanmasının qarşısının alınmasının və kənd təsərrüfatı fəaliyyətinin iqtisadi səmərəliliyinin qorunmasına imkan verəcəkdir.

Qanun layihəsi, torpaq münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi, torpaq bazarının inkişafı, aqrar sahibkarlıq subyektləri

üçün əlverişli şəraitin yaradılması və kənd təsərrüfatı sektorunda iqtisadi fəallığın artırılması baxımından müsbət qiymətləndirilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsi ilə bağlı müsbət rəyini bildirərək Milli Məclisin plenar iclasına birinci oxunuşda təqdim edilməsini məqsədəuyğun hesab etmişdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Yazılanlar var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Doğrudan da, bu, çox vacib bir qanundur. Çünki az sayda olan torpaq sahələri var ki, bu gün onların əkilib–becərilməsi, kultivasiya qaydaları çətinlik yaradır. Baxmayaraq ki, Kənd Təsərrüfatı Nazirliyi hər cür şərait yaradıb, həm subsidiyalar verir, həmçinin, demək olar ki, onların biçilməsində, əkilməsində köməklik göstərir. Aqrar sənaye kompleksləri var. Amma bununla yanaşı, qanunda çox düzgün göstərilmiş məqamlar var ki, buna tam əməl olunmalıdır.

Birincisi, könüllülükdür. Bu, məcburi xarakter daşıya bilməz.

İkincisi, burada mülkiyyətçi hüququ mütləq qorunmalıdır. Çünki torpaq sahibi mülkiyyətçidir və bu, onun istəyinə uyğun şəkildə həyata keçirilməlidir.

Üçüncü məsələ vərəsəlik məsələsidir. Əgər valideyn torpağı icarəyə, birləşməyə veribsə və onun üç övladı varsa, gələcəkdə valideyndən sonra bunların arasında əmlak bölgüsü hansı qaydada həyata keçiriləcək? Bu, gərək mülki hüquqda öz əksini tapsın.

Digər bir məsələ, ciddi şəkildə bir nizamnamə tələb olunur ki, bu sənəd hazırlanmalıdır. Bu sahədə Almaniyanın, inkişaf etmiş başqa-başqa

ölkələrin təcrübəsi var, oradan götürülməlidir ki, bu proses necə davam etdirilməlidir?

Bəli, hamımız torpaqların birləşməsinin tərəfdarıyıq. Çünki hesab edirik ki, bununla ərzaq bolluğuna, ərzaq təhlükəsizliyinə nail olacağıq. Amma bunlar elə detallı olmalıdır ki, vaxtı ilə torpaq islahatı aparılanda birinci mərhələ Azərbaycanda çox uğurla həyata keçdi. Bunun da müəllifi, bayaq qeyd etdiyim kimi, Ümummilli Lider idi.

Bu gün də Prezidentimiz tərəfindən kənd təsərrüfatı sahəsinə, fermerlərə, sahibkarlara ciddi dəstək göstərilir. Ayrı-ayrı ölkələrdən cins mal-qara gətirilir və ucuz qiymətə kəndçilərə verilir. O cümlədən toxumçuluqda, digər məsələlərdə kömək olunur. Amma bütövlükdə isə, ciddi bir nizamnamə şəklində bunu formalaşdırıb, ikinci, üçüncü oxunuşa qədər əlavə etsək, daha məqsədəuyğun olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz qanun layihəsi kifayət qədər vacib sənəddir. Nəzərə alsaq ki, cənab Prezident tərəfindən təsdiq olunmuş dövlət proqramında aqrar sektorun inkişafı ilə bağlı 2026–2030-cu illər üçün hədəflər müəyyənləşdirilib. Bunlar həm müasir suvarma sistemlərindən istifadə olunması, eyni zamanda, aqrar sektorun ixracı imkanlarının artırılması ilə bağlıdır. Növbəti 4 ildə aqrar sektorun ixracatının dörd dəfə artırılmasını və 6 milyard dollara çatdırılmasını nəzərdə tutur.

Bu baxımdan, qanun layihəsi məhz dövlət proqramında da qeyd olunduğu kimi, bu sahədə hüquqi bazanın formalaşmasına və dövlət proqramında nəzərdə tutulan hədəflərin reallaşmasına xüsusi töhfə verəcək.

Burada söhbət təbii ki, hörməti Tahir müəllimin də qeyd etdiyi kimi, könüllü birləşmədən gedir, yəni konsolidasiya prosesi könüllüdür, hər hansı bir inzibati müdaxilə yoxdur. Xüsusən qeyd etmək lazımdır ki, Azərbaycan MDB-də ən ədalətli torpaq islahatı aparan ölkədir. Azərbaycan Ulu Öndərin rəhbərliyi ilə torpaq islahatlarını MDB-də ilk olaraq həyata keçirdi və nəticə etibarı ilə bu, vətəndaşlarımızın torpaq payçısına çevrilməsinə imkan yaratdı.

Aqrar sektorda islahatlar dərinləşir, davam etdirilir. Cənab Prezidentin rəhbərliyi ilə kənd təsərrüfatı müşavirəsində qeyd edilən strateji istiqamətlər və dövlət başçısı tərəfindən təsdiq olunmuş dövlət proqramında qeyd edilən məsələlər artıq aqrar sektorda könüllü əsasda birləşməni və bu istiqamətdə məhsuldarlığın artırılmasını gündəmə gətirir.

Bizim pilot ölkə olaraq seçdiyimiz və araşdırdığımız ölkələrin təcrübəsinə diqqət yetirək: hazırda Niderlandda kənd təsərrüfatı müəssisələrinin sayı 49 min 900-dür və Niderland 137,5 milyard avroluq aqrar ixracatı ilə dünyada ən çox aqrar məhsul ixrac edən ikinci ölkədir.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən araşdırılan pilot ölkələrdən biri də Koreyadır. Bu ölkədə 24 min kənd təsərrüfatı korporasiyası təxminən 970 min fermeri özündə birləşdirir və illik ixracatı 13,6 milyard dollardır.

İsraildə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin sayı 17 mindir. Nəzərə alsaq ki, İsrail dövləti xüsusən məhsuldarlıq baxımından da Azərbaycanın nümunə olaraq öyrəndiyi ölkələrdən biridir.

Bizim ölkənin statistikasına diqqət yetirək: Kənd Təsərrüfatı Nazirliyinin “Elektron kənd təsərrüfatı” informasiya sistemində qeydiyyatdan keçən fermerlərin sayı 600 mindən çoxdur. Azərbaycanın illik ixracatı 1,5 milyard dollardır. Nəticə etibarı ilə biz, əslində, ixracat hər fermer üzrə, yəni adambaşına düşən ixracatı hesablasaq və eyni zamanda, bizim pilot ölkə

olaraq seçdiyimiz ölkələrlə müqayisə etsək, görürük ki, torpaqların konsolidasiyası, bu gün bizim müzakirə etdiyimiz qanun layihəsinin qəbulu çox vacibdir. Çünki cənab Prezident tərəfindən təsdiq olunmuş dövlət proqramında həm müasir suvarma sisteminin təşkili və genişləndirilməsi, həm də məhsuldarlığın və ixracatın artırılması əsas hədəflərdən biridir.

Konseptual olaraq qanun layihəsinin qəbulu, bir tərəfdən, təbii ki, cənab Prezidentin müəyyənləşdirdiyi strategiyaya uyğundur, digər tərəfdən, müasir suvarma sistemlərinin daha geniş yayılmasına imkan verir. Çünki kiçik torpaqlarda müasir suvarma sistemlərinin tətbiqi kifayət qədər çətindir. Amma torpaqlar könüllü şəkildə birləşirsə, konsolidasiya olunursa, müasir suvarma sistemlərindən istifadə mümkün olur. Bu, təbii ki, məhsuldarlığın artırılmasına gətirib çıxarır. Nəticədə biz bu qanun layihəsinin qəbulunun və icrasının kənd təsərrüfatında məhsuldarlığın artmasına səbəb olacağını müşahidə edəcəyik.

Digər vacib məqam isə texnika xərclərinin, yəni istehsal edilən məhsulun maya dəyərində struktur xərclərinin azalmasıdır. Çünki nəticədə konsolidasiya olduqda artıq texnikadan istifadə xərcləri də azalır. Nəzərə alsaq ki, texniki olaraq kənd təsərrüfatı maşınlarının kiçik sahələrdə istifadə olunması daha böyük xərclər tələb edir, nəinki konsolidasiya olunmuş birləşmiş ərazilərdə. Bu, həm də fermerlərin xərclərinin azalmasına gətirib çıxarar.

Artıq bizim daha öncə təsdiq etdiyimiz qanunvericilik aktlarına əsasən məhz konsolidasiya olunmuş, yəni birləşmiş torpaq sahələrinə malik olan fermerlər subsidiyada güzəştlərə malikdirlər. Bu kontekstdən artıq yeni qanun layihəsinin qəbul edilməsi, həm də fermerlər üçün dövlət büdcəsindən daha çox dəstək anlamına gəlir, onların subsidiya məbləğinin artmasına imkan yaradır.

Bu, vacib qanun layihəsidir və cənab Prezident tərəfindən müəyyənləşdirilmiş strategiyaya tam uyğundur. Dəstəkləyirəm və hörmətli həmkarlarımızdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Doğrudan da, çox vacib bir qanundur. Mən hələ səsverməyə keçməzdən əvvəl düşünürəm ki, Tahir müəllim, media buradadır, çıxışlar da oldu, bununla bağlı Sizin təqdimatınız da dinlənildi. Oturun, xahiş edirəm, oturun. Bununla bağlı açıqlamalar verin. Çünki əminəm ki, hər birimizə bu barədə seçicilər tərəfindən suallar olacaq. Lazımdırsa, nazirliyin nümayəndələri də, hörmətli nazir müavini də buradadır. İstəsəniz, bir dəyirmi masa təşkil edək, televiziya kanalları ilə danışaq. Bu pozitiv məqamları cəmiyyətə açıqlayaq. Bu qanunun konsepsiyasını çox açıq şəkildə təqdim etmək lazımdır. Bu, mənim fikrimdir. Nə lazımdırsa, təşkil edə bilərik.

Hörmətli həmkarlar, çıxışlar bitdi, gəlin, səsverməyə keçək. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Hörmətli nazirliyin nümayəndələri, biz həmişə Milli Məclis olaraq, deputat olaraq istəyirik ki, – bunu tək öz adımdan demirəm, – bax, belə vacib qanunları seçicilərimizə ətraflı izah edək. Çünki qanun, təbii ki, qanun dili ilə yazılır, ancaq elə məqamlar var ki, biz gərək onları danışaq, açıqlayaq. Sizin köməyinizlə biz bunu birlikdə edə bilərik.

Çox sağ olun, bu qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Keçirik növbəti – 18-ci məsələmizə. Bu, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında Mənzil Fondunun özəlləşdirilməsi haqqında" Qanunda və digər dörd qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, yenə də Sizə əziyyət veririk, buyurun, məlumat verin.

**Tahir Rzayev.** Sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, adları çəkilən qanun layihələrinə edilmiş dəyişikliklər "Daşınmaz əmlakın elektron reyestri və kadastrı informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanının icrası çərçivəsində hazırlanmışdır.

Dəyişikliklər daşınmaz əmlakın dövlət reyestri və kadastrının vahid sistemdə birləşdirilməsinin və məlumatların vahid mənbədən idarə edilməsinin və saxlanılmasının təmin olunmasına, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə xidmət edir.

Təklif olunan dəyişikliyə əsasən dövlət kadastrına daxil edilməli olan məlumatların dairəsi və həmin məlumatların dövlət kadastrına daxilolma əsasları konkretləşdirilir.

Daşınmaz əmlakın dövlət reyestrinin əmlakın təsvirinə və müvafiq fəslinin məlumatları ilə kadastr məlumatları birləşdirilərək informasiya sisteminin tamlığı, dövlət informasiya ehtiyatlarında saxlanılan məlumatlar arasında ziddiyyətlərin tam olaraq aradan qaldırılması təmin ediləcəkdir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun qüvvədə olan redaksiyasında hüquqların qeydiyyatı üçün 10 iş günü kəskin azaldılaraq 1 iş günü olaraq təyin olunur. Dəyişiklik daşınmaz əmlak bazarında çeviklik və xərclərin azaldılmasına xidmət edir. Dövlət reyestri "Daşınmaz əmlakın

elektron reyestri və kadastrı" informasiya sistemi vasitəsi ilə elektron üsulla aparılacaqdır.

Torpaq sahəsi daşınmaz əmlakın bir növü olduğundan kadastrın ayrı-ayrı əmlak növləri üçün fərqli tənzimlənməsi və aparılması yerinə ölkə üzrə vahid daşınmaz əmlak kadastrının yaradılması nəzərdə tutulmuşdur.

Dəyişikliklər digər əmlaklar – tikintisinə icazə tələb olunan tikinti obyektləri üzərində hüquqların optimallaşdırılması, tikintisi başa çatmamış binalarda mənzil satışının tənzimlənməsi, vətəndaşlara qeydiyyat orqanına gəlmədən internet üzərindən ölkənin istənilən yerində yerləşən əmlakına dair ərizənin verilməsi və hazır sənədin əldə edilməsi imkanı yaradır.

Qanunlara edilmiş digər dəyişikliklər texniki xarakter daşıyır. Deputatlardan bu qanun layihəsinə münasibət bildirmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə digər iki komitədə də baxılmışdır. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini Azər müəllim, yenə də Siz bildirəcəksiniz. Azər Badamov. Buyurun.

**Azər Badamov.** Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Komitəmizin profilinə uyğun olaraq, qeyd etmək istəyirəm ki, layihənin əsas məqsədi daşınmaz əmlakın dövlət reyestri və kadastrının vahid elektron informasiya sistemində birləşdirilməsi, məlumatların vahid mənbədən idarə olunması, qeydiyyat proseslərinin sadələşdirilməsi və rəqəmsallaşdırılmasıdır.

Bu dəyişikliklər dövlət informasiya ehtiyatlarında məlumatların təkrarçılığını və uyğunsuzluqlarını aradan qaldıracaq, xidmətlərin operativliyini və şəffaflığını artıracaqdır.

Qanun layihəsinin mühüm yeniliklərindən biri "İlkin qeydiyyat" və "Təkrar qeydiyyat" anlayışlarının qanunvericiliyə daxil edilməsidir. Hörmətli Tahir müəllimin də qeyd etdiyi kimi, təkrar qeydiyyat müddətinin 10 iş günündən 1 iş gününə endirilməsi daşınmaz əmlak bazarında dövriyyənin sürətlənməsinə, vətəndaşların və sahibkarlıq subyektlərinin vaxt və maliyyə xərclərinin azalmasına xidmət edəcəkdir.

Layihə həmçinin texniki sənədlərin optimallaşdırılmasını, dövlət orqanları arasında məlumat mübadiləsinin elektron qaydada həyata keçirilməsini, vətəndaşların elektron hökumət üzərindən məsafədən müraciət edə bilməsini, eləcə də tikintisi başa çatmamış binalarda mənzil satışının və ipoteka qeydiyyatının hüquqi mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur.

Layihə ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir. Sənəd konseptual baxımdan məqsədəuyğun hesab edilərək birinci oxunuşda qəbul olunması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini yenə də bizə Nurlan Həsənov bildirəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Layihənin ən böyük üstünlüyü xidmətlərin elektronlaşdırılmasıdır. Bu yanaşma elektron hökumət modelinin inkişafına və dövlət xidmətlərinin müasir standartlara uyğunlaşdırılmasına xidmət edir.

Layihədə ən önəmli məqam təminat qeydi ilə bağlıdır. Məlumat üçün bildirim ki, Mülki Məcəllədə bununla bağlı müddəalar mövcud idi. Lakin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda bu mexanizm

qabaqcadan qeydiyyat kimi nəzərdə tutulurdu, yəni ikili yanaşma mövcud idi. İndi isə bu mexanizm eyniləşdirilir.

Məlumat üçün bildirim ki, 2022-ci il aprelin 4-də "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Həmin sərəncamın 1.8-ci bəndində İqtisadiyyat Nazirliyinə tikilməkdə olan çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquq müəyyənedici sənədlərin, yəni çıxarışların vahid informasiya bazasının yaradılması, bu istiqamətdə daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi tapşırığı verilmişdir.

Bildirmək istərdim ki, tikilməkdə olan binalarda yerləşən mənzillə bağlı təminat qeydinin aparılması gələcəkdə bina istismara verildikdə vətəndaşların rahat şəkildə mənzillərinə çıxarış almasına, mənzilin digər şəxslərə satılması, həmçinin digər şəxslərə artıq satılmış olması faktını ortaya çıxararaq şəxsin mülkiyyət hüquqlarının müdafiə olunmasına, ödəmə öhdəliklərinin ipoteka ilə təmin edilməsinə və xüsusi ilə aztəminatlı ailələrin də mənzil ala bilməsinə xidmət edir.

Təminat qeydi institutunun tətbiqinə məhz "Şəhərsalma və Memarlıq İli"ndə başlanılması simvolik xarakter daşımaqla, daşınmaz əmlak və tikinti sektorunda hüquqi risklərin azalmasına mühüm töhfə verə bilər. Praktikada bu mexanizmin tam tətbiqi vətəndaşların, investorların və kredit təşkilatlarının hüquqi müdafiəsini daha da gücləndirəcək.

Odur ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin qanun layihəsi ilə bağlı rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, ətraflı məlumata görə. Hörmətli həmkarlar, müzakirəyə heç kim yazılmayıb. Ona görə də mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim qonaqlarımız getdilər, getmədilər? Əgər qonaqlarımız varsa, hörmətlə yola salın.

Hörmətli həmkarlar, biz indi gündəliyimizin 19-cu məsələsinə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə  Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu gün komitənin rəyini bizə hörmətli Kamal Cəfərov verəcək. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli xanım sədr. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi hazırda Milli Məclisdə müzakirə olunan və ya yeni qəbul edilmiş bir sıra digər qanunlara uyğunlaşdırma məqsədi daşıyır.

Birinci məsələ psixiatriya müayinəsi ilə bağlıdır. Əgər inzibati xəta törədən şəxsin psixi problemi varsa və ona psixiatriya yardımının gecikdirilməsi özü və ya başqalarının həyat və sağlamlığına təhlükə yaradarsa, həmin şəxsin və ya qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinəsi aparıla bilər və ya qeyri-könüllü psixiatriya stasionarına yerləşdilə bilər.

İkinci məsələ kibertəhlükəsizliklə bağlıdır. Kibertəhlükəsizliyin təmini sahəsində normativ aktların pozulmasına görə yeni məsuliyyət növləri müəyyən edilir.

İnformasiya infrastrukturunun subyektləri, internet və host provayderləri tərəfindən kibertəhlükəsizliyin təmin edilməməsi, dövlət qurumunun kibertəhdidlərin qarşısının alınması ilə bağlı verdiyi göstərişləri icra etməməsi, kiber insidentlər barədə məlumatların dərhal verilməməsi, sorğuların 24 saat, rəqəmsal tədqiqat üçün isə 5 iş günü ərzində cavablandırılmaması, o cümlədən kiber istintaqa şərait yaratmamaq, yaxud əldə olunmuş rəqəmsal sübutları qorumamaq, silmək, dəyişdirmək və ya saxtalaşdırmaq cərimıəyə səbəb olacaq.

Üçüncü məsələ valyuta vəsaitlərinin qaytarılması ilə bağlıdır. Maddənin dispozisiyasında “az miqdarda” sözü çıxarılır. Cinayət Məcəlləsindəki 280-ci maddə ləğv edildiyi üçün artıq 20 min manatdan yuxarı xarici valyutanın ölkəyə qaytarılmaması da cinayət deyil, inzibati xəta hesab olunacaq. Məhkəmə və ya səlahiyyətli orqan qərar qəbul edənədək vəsaiti xaricdən qaytaran şəxs isə inzibati məsuliyyətdən azad ediləcək.

Dördüncü məsələ yalançı sahibkarlıqla bağlıdır. Kredit almaq, rüsumlardan azad olmaq və ya qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə yalnız hüquqi şəxs yaratmaq deyil, həm də hüquqi şəxsi yaratmadan fiziki şəxs kimi vergi uçotuna alınmaq və ya bu subyektləri faktiki idarə etməkdə yalançı sahibkarlıq hesab ediləcək.

Beşinci məsələ qumar oyunları ilə bağlıdır. Qumar oyununda iştirak etməyə görə cərimələnmiş şəxs 1 il ərzində bu xətanı təkrar törədərsə, daha ağır sanksiya – oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak – qazanılmış uduş, mükafat və ya digər gəlir

müsadirə olunmaqla 5000 manat məbləğində cərimə və ya 15 günədək inzibati həbs tədqiq ediləcək.

Altıncı məsələ istehlakçı hüquqları ilə bağlıdır. Satıcı və ya icraçı tərəfindən istehlakçıya öz müəssisəsinin adı, mənsubiyyəti və iş rejimi barədə zəruri və düzgün məlumatın verilməməsinə görə də 200 manat cərimə müəyyən edilir.

Növbəti məsələ Hesablama Palatasının fəaliyyəti ilə bağlıdır. Hesablama Palatasının fəaliyyətinə mane olmaq, xüsusən də büdcənin layihələrinə və icrasına dair rəylərin hazırlanması zamanı zəruri sənədlərin təqdim edilməməsi və ya bank və sığorta sirri təşkil edən məlumatların gecikdirilməsi, yalan və dürüst olmayan məlumatların təqdim edilməsinə görə vəzifəli şəxslər 400-700 manat məbləğində, hüquqi şəxslər isə 1000–5000 manat məbləğində cərimə ediləcək.

Sonuncu məsələ isə toxumçuluqla bağlıdır. Bu gün müzakirə etdiyimiz məsələlərlə bağlı yeni inzibati məsuliyyətlər müəyyən edilir. Uyğunlaşdırma xarakteri daşıyır.

Qeyd edilənləri nəzərə alaraq həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nizami Səfərov. Nizami müəllim, buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Müzakirəyə təqdim edilən qanun layihəsi Azərbaycan Respublikasının İnzibati Məcəlləsində kibertəhlükəsizliyin təmin edilməsi sahəsində normativ hüquqi aktların tələblərinin pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən 371-2-ci maddəsinin əlavə olunmasını nəzərdə tutur və Milli Məclisin müzakirəsində olan “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan

Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanmışdır.

Hörmətli deputatlar, ümumiyyətlə, qeyd etmək istərdim ki, hüquq mühafizə siyasətinin mühüm seqmenti qismində informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin hüquqi vasitələrlə təmin olunması öz məqsədləri, vasitələri, formaları, formalarına görə hazırkı şəraitdə dövlətimizin fəaliyyətinin prioritet istiqaməti olan rəqəmsal suverenliyin və kiberfəzada milli maraqların qorunması ilə üzvi formada bağlıdır.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında nəzərdə tutulur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir və bu sırada hüquqi və inzibati mexanizmlərin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Həmçinin nəzərinizə çatdırmaq istərdim ki, dövlət başçısının 2023-cü il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiya”da nəzərdə tutulmuşdur ki, informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ hüquqi bazanın müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi davamlı şəkildə təmin edilməlidir.

Müzakirəyə təqdim edilən qanun layihəsi konseptual baxımdan qeyd edilən istiqamətdə atılan mühüm addımdır və Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə uyğundur. Beynəlxalq razılaşmalar birmənalı olaraq nəzərdə tutur ki, iştirakçı dövlətlər öz hüquq sisteminin fundamental prinsiplərinə uyğun

olaraq, müvafiq qanunvericilik, inzibati və ya digər tədbirlər vasitəsi ilə kibertəhlükəsizliyin təmin olunması sahəsində səmərəli, əlaqələndirilmiş siyasətlər və ən yaxşı təcrübələr formalaşdırmaq üçün səy göstərməlidirlər.

Hörmətli deputatlar, informasiya təhlükəsizliyinin təmin edilməsi sisteminə nəzər saldıqda müəyyən olunur ki, bu sahədə müxtəlif hüquqi instrumentlərdən və həmçinin beynəlxalq hüquqi, cinayət hüququ, inzibati hüquqi vasitələrdən səmərəli formada istifadə olunur. Birmənalı olaraq vurğulanmalıdır ki, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik inzibati hüquqi müdafiənin obyektidir və qanun layihəsi bunun əyani təsdiqidir.

Göründüyü kimi, Azərbaycan Respublikasının qanunvericilik sistemində kibertəhlükəsizliyin təmin edilməsində kompleks yanaşma mövcuddur. Müvafiq sistemin səmərəli fəaliyyəti üçün həm qanunvericilik, həm də institusional təsisatlar formalaşdırılıb və bu fəaliyyət ardıcıl olaraq davam etdirilir.

Azərbaycan Respublikasının İnzibati Məcəlləsinə təklif olunan dəyişiklik əhəmiyyətli xarakter daşıyır və kibertəhlükəsizlik sahəsində hüquqi rejimin bərqərar olunmasında növbəti addım kimi dəyərləndirilməlidir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur və mən birinci oxunuşda qanun layihəsini səsə qoyuram. Buyurun, hörmətli həmkarlar, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ “Tibbi sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılıb. Məsələyə aid məlumatı vermək üçün mən hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Diqqətinizə təqdim olunan qanun layihəsi möhtərəm cənab Prezidentin 2026-cı il 19 mart tarixli Fərmanının icrası ilə bağlıdır.

Qanun layihəsinin əsas məqsədi icbari tibbi sığorta sistemində idarəetmənin təkmilləşdirilməsi, elektron xidmətlərin hüquqi əsaslarının gücləndirilməsi, göstərilən tibbi xidmətlərin daha səmərəli təşkil edilməsidir.

Layihə “Tibbi sığorta haqqında” Qanuna bir sıra mühüm dəyişiklikləri nəzərdə tutur. İlk növbədə qanunvericiliyə “icbari tibbi sığorta fondu” anlayışı daxil edilir. Bununla yanaşı, icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların vahid informasiya sistemi vasitəsi ilə elektron qaydada həyata keçirilməsinin hüquqi əsasları müəyyən edilir.

Dəyişikliklərə əsasən xəstələrin ambulator müalicəsi üçün icbari tibbi sığorta ilə qarşılanan dərman vasitələri apteklər tərəfindən yalnız elektron sistemə daxil edilmiş elektron reseptlər əsasında təqdim olunacaq. Həmçinin icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada tətbiqi nəzərdə tutulur. Bu yeniliklər icbari tibbi sığorta sistemində rəqəmsallaşmanın genişləndirilməsinə, xidmətlərin operativliyinin artırılmasına, şəffaflığın və nəzarət mexanizmlərinin gücləndirilməsinə,

eləcə də vətəndaşların tibbi xidmətlərə çıxış imkanlarının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Hörmətli həmkarlar, qanun layihəsini dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsinin mahiyyəti və konsepsiyası barəsində hörmətli Əhliman müəllim ətraflı məlumat verdi.

Bizim komitənin profilinə uyğun olaraq söyləmək istəyirəm ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanuna edilən dəyişiklik "Sosial xidmət haqqında" Qanuna uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda əlilliyin müəyyən edilməsi anlayışından reabilitasiya imkanlarının qiymətləndirilməsi müddəası çıxarılır. Əlilliyi olan şəxslərin reabilitasiya imkanlarının müəyyənləşdirilməsi və reabilitasiya tədbirlərinin həyata keçirilməsi hazırda "Sosial xidmət haqqında" Qanunla tənzimlənir. Buna görə də uyğunlaşma xarakterlidir. Xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Müzakirəyə heç kim yazılmayıb, səsverməyə keçirik. Xahiş edirəm, birinci oxunuşda qanun layihəsinə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 102 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Bizim növbəti məsələmiz Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Kamal müəllim, mən yenə Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsinin əsas məqsədi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətinin uzadılması ilə bağlı inzibati prosedurların elektronlaşdırılması və sənəd dövriyyəsinin sadələşdirilməsidir.

Belə ki, müvəqqəti olma müddətinin uzadılması barədə qərar kağız daşıyıcı əvəzinə, elektron sənəd formasında tərtib ediləcək. Dövlət rüsumu ödənildikdən sonra qərar müraciət edənin elektron hökumət informasiya sistemindəki elektron kabinetinə yerləşdiriləcək və eyni zamanda, onun elektron poçt ünvanına göndəriləcəkdir. Bu qərarın yenidən verilməsinə görə nəzərdə tutulan dövlət rüsumu da ləğv ediləcəkdir.

Qeyd edilənləri nəzərə alaraq həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun.

**Azər Əmiraslanov.** Çox sağ olun. Qanun layihəsi ilə bağlı hörmətli həmkarımız Kamal Cəfərov ətraflı məlumat verdi. Profil komitəsi olaraq layihə ilə bağlı rəyimiz müsbətdir. Nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə heç kim yazılmayıb, səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyimizin sonuncu məsələsinə gəldik. 22-ci məsələ “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bədəl Bədəlova söz verirəm. Bədəl müəllim, buyurun.

**Bədəl Bədəlov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsi ilə enerji effektivliyi informasiya sisteminin yaradılması nəzərdə tutulmuşdur.

Təklif olunan qanun layihəsi həm sistemin tətbiqinin və saxlanmasının, onun alt sistemlərinin yaradılmasının, habelə qanunun 18.1-ci maddəsində nəzərdə tutulan müvafiq sahədə informasiya təminatı, maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin, həmçinin sistemin fəaliyyəti ilə bağlı əməliyyatların uçotunun aparılması məqsədi ilə proqram təminatının əldə edilməsinin maliyyə təminatını həll edir. Belə ki, qeyd olunan tədbirlər Enerji effektivliyi fondunun vəsaiti hesabına maliyyələşdiriləcəkdir. Fondun əsas gəlir mənbəyini enerji resurslarının satışından fonda köçürüləcək vəsait təşkil edir ki, onun da konkret məbləği Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji effektivliyi fondunun vəsaitinin formalaşması və istifadə qaydası" ilə müəyyən edilir.

Qeyd olunan tədbirlərin Enerji effektivliyi fondunun vəsaiti hesabına həyata keçirilməsi, enerji effektivliyi informasiya sisteminin yaradılması, saxlanması üçün zəruri xərclərinin dayanıqlılığı maliyyə təminatına şərait yaradır.

Söz gedən qanun layihəsi enerji səmərəliliyi sahəsində həyata keçirilən maarifləndirmə tədbirlərinin dayanıqlılığı, uzunmüddətli icrası üçün sabit maliyyə mexanizminin yaradılmasına, bununla da enerjidən səmərəli istifadə üzrə davranışların təşviqinə, əhalinin məlumatlılığının səviyyəsinin genişləndirilməsinə, yeni kommunikasiya alətlərinin tətbiqinə və enerjiyə qənaət mədəniyyətinin formalaşmasına yönəldilmişdir.

Məlumat üçün bildiririk ki, enerji effektivliyi informasiya sisteminin əsasnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 iyun 2026-cı il tarixli 168 nömrəli Qərarı ilə təsdiqlənmiş "Enerji effektivliyi" informasiya sistemi üzrə texniki və institusional işlər tamamlanaraq məlumatların

toplanması və sistemə daxil edilməsi prosesi mərhələli şəkildə həyata keçirir.

Qanun layihəsinə komitəmizdə baxılmışdır və yekdilliklə dəstəklənərək plenar iclasa tövsiyə olunmuşdur. Həmkarlarımızdan da qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, müzakirəyə heç kim yazılmayıb. Kimsə çıxış etmək istəyir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Bizim növbəti iclasımız ayın 13-də olacaq. Sağ olun.

## *EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ*

## *10 iyul 2026-cı il*

**Ceyhun Məmmədov.** Medianın İnkişafı Agentliyinin keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi, ümumilikdə, 87.7 faiz təşkil edir.

Heç şübhəsiz ki, Prezident İlham Əliyevə ictimai etimadın yüksək səviyyədə olmasının çox ciddi siyasi, tarixi və strateji səbəbləri var. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirməsi, dövlət başçısının uzaqgörən və qətiyyətli addımları nəticəsində Azərbaycan bu gün tarixinin ən şanlı

dövrünü yaşayır. Ölkəmiz bu gün tarixinin heç bir dövründə olmadığı qədər güclü və qüdrətlidir.

İllər əvvəl Azərbaycan torpaqlarının bir hissəsi işğal altında idi. Bu, cəmiyyətimizin ən böyük ağrısına çevrilmişdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Bu gün işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Bayrağının dalğalanması tarixi Qələbənin möhtəşəmliyini əyani nümayiş etdirir. Bu, Azərbaycanın qazandığı tarixi Zəfərin əzəmətini və dövlətimizin gücünü göstərən ən mühüm amillərdəndir. Heç şübhəsiz ki, uğurlar yalnız Qarabağ Zəfəri ilə məhdudlaşmır. Bu gün Azərbaycanın iqtisadi inkişafı, enerji təhlükəsizliyi sahəsində uğurlar və beynəlxalq layihələrdə artan rolu həyata keçirilən siyasətin uzqgörənliyini bir daha təsdiqləyir.

Bu gün ölkəmiz beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi mühüm platformaya çevrilib. Dünya ölkələri Azərbaycana böyük maraq və yüksək etimad göstərir. Uğurlu daxili və xarici siyasəti beynəlxalq ictimaiyyət yüksək qiymətləndirir. Son dövrlərdə müxtəlif ölkələrin dövlət başçılarının, nüfuzlu beynəlxalq təşkilat rəhbərlərinin Azərbaycana ardıcıl səfərləri ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir. Avropa İttifaqı rəhbərliyinin Azərbaycana səfərləri, ölkəmiz haqqında səsləndirilən müsbət fikirlər və Azərbaycanın beynəlxalq platformalarda artan rolu dövlətimizin qazandığı uğurların növbəti təsdiqidir. Bütün bunlar Azərbaycanın gücünün, qüdrətinin və beynəlxalq mövqeyinin davamlı şəkildə möhkəmləndiyini göstərir.

Dövlət başçısının müəyyən etdiyi inkişaf strategiyası çərçivəsində ölkəmizin qarşısında böyük layihələr, yeni təşəbbüslər və mühüm hədəflər dayanır. Bu siyasətin uğurla davam etdirilməsi Azərbaycanın dövlət

müstəqilliyini daha da möhkəmləndirəcək, beynəlxalq mövqelərini gücləndirəcək və ölkəmizin hərtərəfli inkişafına yeni töhfələr verəcək.

**Fariz İsmayılzadə.** Ölkəmizdə 9 İyul Azərbaycan Respublikasının Diplomatik Xidmət əməkdaşlarının Peşə Bayramı günü kimi qeyd olunur.

Müstəqillik dövründə, demək olar ki, kiçik bir qurum şəklində fəaliyyətə başlamış Xarici İşlər Nazirliyi, bu dövrdə uzun və uğurlu inkişaf yolu keçib. Ölkəmizin fəal və qətiyyətli diplomatiyası nəticəsində Qarabağ münaqişəsinin reallıqları dünyaya çatdırılıb. BMT Təhlükəsizlik Şurasında və digər beynəlxalq təşkilatlarda çoxsaylı qətnamələr qəbul etdirilib. Prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın azad olunmasında diplomatların böyük və əvəzsiz rolu var. Bu gün Azərbaycan bir neçə beynəlxalq təşkilata, o cümlədən Qoşulmama Hərəkatına, Türk Dövlətləri Təşkilatına, İslam Əməkdaşlıq Təşkilatına, BMT-nin Təhlükəsizlik Şurasına uğurla sədrlik edib, COP29 və WUF13 kimi böyük forumlar təşkil edib. Azərbaycan yeni regional təşkilatların və platformaların təşəbbüskarıdır. Diplomatların səyləri nəticəsində enerji və nəqliyyat strategiyamız uğurla inkişaf etdirilir, mədəniyyətimiz təbliğ olunur və ölkəmizin nüfuzu beynəlxalq arenada artır.

Xarici İşlər Nazirliyinin və səfirliklərin fəaliyyəti, eyni zamanda, son illər sürətlə inkişaf edən parlament diplomatiyası tərəfindən də dəstəklənir.

Xanım Sədr, Sizin çoxsaylı səfərləriniz, beynəlxalq təşkilatlarda fəaliyyətiniz və dostluq qruplarının gördüyü işlər xarici siyasət gündəliyimizə önəmli dayaqdır.

Dünyada və regionda çağırışlar və risklər artdıqca, diplomatiyamızın qarşısında yeni vəzifələr durur. Diplomatlarımıza bu çətin və şərəfli işində uğurlar arzu etmək istəyirəm.

**Kamal Cəfərov.** Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərdə diqqəti xüsusilə ƏDV depozit hesabının istifadəsinə yönəltmək istəyirəm, çünki bu əlavə real iqtisadi effekt yaradan mexanizmdir. Söhbət ondan gedir ki, 2027-ci il yanvarın 1-dən etibarən 4 il müddətinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri ƏDV-nin depozit hesabından vəsaiti birbaşa Dövlət Sosial Müdafiə Fonduna köçürə biləcəklər.

Bu, sadəcə, texniki dəyişiklik kimi görünməməlidir, əksinə qeyri-neft sektorunda çalışan sahibkara maliyyə çevikliyi verən addımdır. Bu günə qədər ƏDV-nin depozit hesabında dondurulan vəsait bir çox hallarda müəssisələrin dövriyyəsindən kənarda qalırdı və sosial ödənişlərlə bağlı öhdəliklərin icrasında əlavə yük yaradırdı. İndi isə həmin vəsaitin sosial müdafiə fonduna yönləndirilməsi hüququ sahibkara həm əməkhaqqı fondu üzərindəki təzyiqi azaltmaq, həm də sosial sığorta öhdəliklərini vaxtında yerinə yetirmək imkanı verir.

Bunu da vurğulamaq istərdim ki, bu güzəşt yalnız neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektora şamil edilir, bu isə iqtisadiyyatın diversifikasiyası siyasətimizlə tam şəkildə uzlaşır. Hesab edirəm ki, qeyd olunan əlavə sahibkarlığın inkişafına və sosial fondun dayanıqlılığına xidmət edən balanslaşdırılmış həll yoludur.

Bu cür islahatlar dövlət və özəl sektor arasında qarşılıqlı etimad mühitini daha da möhkəmləndirməklə yanaşı, biznes subyektlərinin gələcək fəaliyyətlərini daha uzunmüddətli və effektiv şəkildə planlaşdırmalarına geniş imkanlar açır. Yekun nəticədə, tətbiq edilən yeni tənzimləmə mexanizmləri, bütövlükdə, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə və davamlı artımın təmin olunmasına mühüm töhfə verəcəkdir.

***

Gömrük Məcəlləsinə təklif olunan dəyişikliklər layihəsinin ikinci oxunuşu daxili bazarımızın keyfiyyətsiz və təhlükəli mallardan qorunması baxımından prinsipial xarakter daşıyır. Hamımıza aydındır ki, texniki reqlamentlərə cavab verməyən qeyri-qida məhsullarının ölkəyə sərbəst daxil olması vətəndaşın sağlamlığına birbaşa təhdiddir, həmçinin yerli istehsalçılarımız üçün qeyri-bərabər rəqabətlilik yaradır. İndiyə qədər qanunvericilikdəki bu boşluğa görə xaricdən gətirilən bir çox yararsız məhsul gömrük sərhədini rahatlıqla keçirdi.

Lakin layihənin praktik icrasına keçid mərhələsində bizim üçün kritik məqam, əlavə edilən 1.1 və 1.2-ci bəndlərdə əksini tapan “tanınmış xarici mənşəli uyğunluq sənədləri” məsələsidir. Əgər tətbiq mexanizmi daxildə çevik qurulmasa, beynəlxalq səviyyədə tanınan sertifikatı olan idxalçı belə gömrük keçid məntəqələrində aylarla süni maneələrlə, yersiz yoxlamalarla qarşılaşacaq. Bu isə birbaşa süni qiymət artımına və bazarda qıtlığa yol aça bilər.

Təqdirəlayiq haldır ki, qanunda sahibkarların yeni sistemə uyğunlaşması üçün 24 aylıq keçid dövrü nəzərdə tutulub. Bu müddət həm idxalçılar, həm də gömrük strukturları üçün inzibati prosesləri rəqəmsallaşdırmaq və şəffaflaşdırmaq üçün kifayətdir. İqtisadi islahatların effektivliyi hər zaman onun praktiki tətbiqində özünü göstərir və normativ bazanın təkmilləşdirilməsi bu sahədə əsasdır. Bu baxımdan, dövlət və özəl sektor arasında qurulacaq sağlam tərəfdaşlıq daxili bazarın dayanıqlı inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Sonda isə xarici sertifikatların tanınması prosesinin avtomatlaşdırılmasını və gömrükdə insan amilinin minimuma endirilməsini vacib hesab edirəm.

***

Bu gün ölkəmizin strateji təhlükəsizlik təməllərindən biri olan ərzaq müstəqilliyimizi birbaşa tənzimləyən mühüm sənədi müzakirə edirik. Qlobal iqlim dəyişikliklərinin yaratdığı risklər və artan əhalinin tələbatına uyğun olaraq, kənd təsərrüfatında dayanıqlı modelə keçid dövlətimiz üçün prioritet vəzifədir. Hər birimiz yaxşı anlayırıq ki, güclü bitkiçilik və ərzaq təhlükəsizliyi məhz keyfiyyətli, əlçatan toxumdan başlayır.

Təqdim olunan layihə birbaşa sahədəki real problemlərin həllinə və islahatların dərinləşməsinə yönəlib. Xüsusilə sahənin rəqəmsallaşması, toxum əməliyyatçılarının qeydiyyatının elektron formaya keçməsi və sertifikatlaşdırma prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması təqdirəlayiqdir. Bu, həm fermerlərimizin şəffaf məlumata operativ çıxışını təmin edəcək, həm də toxum nəzarətini asanlaşdıracaq.

Sənədin prinsipial uğurlarından biri də sahədəki süni kvotaların ləğvi və inkişafı dəstəkləyən mühitin yaradılmasıdır. Bu yanaşma idxaldan asılılığı azaldaraq milyonlarla vəsaitin ölkədən kənara çıxmasının qarşısını alacaq. Eyni zamanda qeydiyyata alınmamış yeni növlərin sınaq məqsədi ilə idxalına icazə verilməsi elmi və praktiki çevikliyi artıracaq.

İstehsal xərclərinin azalmasına, məhsuldarlığın artmasına və sahəyə özəl investisiyaların cəlb olunmasına xidmət edən bu islahatı dəstəkləyirəm. Hesab edirəm ki, qanunvericilik bazasının bu cür normalarla zənginləşdirilməsi aqrar sektorun gələcək inkişafını müəyyən edən mühüm addımlardan biridir. Strategiyamızın uğurlu icrası ölkəmizin aqrar potensialını tam şəkildə reallaşdırmağa və regionda aparıcı mövqeyimizi daha da möhkəmləndirməyə imkan verəcəkdir.

***

Təqdim olunan qanun layihəsi ölkəmizin aqrar sektorunda onilliklər ərzində həllini gözləyən ən ciddi struktur problemi olan torpaqların parçalanmasını birbaşa hədəf alır. Aydındır ki, kənd təsərrüfatı torpaqlarının kiçik hissələrə bölünməsi həm səmərəli idarəçiliyi, həm də müasir texnologiyaların tətbiqini qeyri-mümkün edirdi.

Təqdim olunan layihəni incələdikdə görünür ki, burada kəndlinin və sahibkarın hüquqlarını qoruyan, istehsalı stimullaşdıran mühüm mexanizmlər təklif olunur. Sənəddə torpaqların könüllülük və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsi, infrastrukturun yenilənməsi və kompensasiya sisteminin qurulması nəzərdə tutulur.

Digər məqam isə alğı-satqı zamanı qonşu torpaq mülkiyyətçilərinə üstünlük hüququnun verilməsi və torpaqların 5 hektardan az olmamaq şərti ilə bölünməsinə qoyulan məhdudiyyətdir. Bu tələb gələcəkdə torpaqların yenidən qarışıq şəkildə parçalanmasının qarşısını bilavasitə alacaqdır. Dövlət kadastrı ilə real sahələr arasındakı uyğunsuzluqların aradan qaldırılması isə mülkiyyət mübahisələrini minimuma endirəcək.

Qanunvericilik islahatlarının bu miqyasda həyata keçirilməsi uzunmüddətli dövrdə regionların sosial-iqtisadi inkişafına birbaşa təsir göstərəcək. Eyni zamanda, kənd təsərrüfatı təyinatlı torpaqların səmərəli istifadəsi və hüquqi mühafizəsi sahəsində idarəetmənin şəffaflığını təmin edəcək və sahəyə investisiya axınını sürətləndirəcəkdir.

Hesab edirəm ki, layihə torpaq bazarını tənzimləyərək ərzaq təhlükəsizliyimizi gücləndirəcək, hüquqi sistemimizdə torpaq idarəçiliyini daha işlək vəziyyətə gətirəcəkdir.

**Kamran Bayramov.** Bu gün müzakirəmizə təqdim olunan “Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım

haqqında Müqavilə" həm hüquqi tənzimləmə, həm də vətəndaşlarımızın hüquqlarının qorunması baxımından müstəsna strateji əhəmiyyət kəsb edir.

İndiyə qədər bu sahədəki münasibətlər həm regional çoxtərəfli mexanizmlər, xüsusilə Müstəqil Dövlətlər Birliyi çərçivəsindəki Minsk və Kişinyov konvensiyaları, həm də Avropa təşkilatlarının müvafiq sənədləri ilə tənzimlənirdi. Lakin müasir geosiyasi reallıqlar, regionda baş verən dərin dəyişikliklər və Ukraynanın bir sıra çoxtərəfli regional platformalardan çıxması, fərqli xarici siyasi kurs seçməsi bu sahədə yeni və daha etibarlı hüquqi arxitekturanın qurulmasını qaçılmaz etdi.

Məhz buna görə də, hüquqi yardım məsələlərinin ikitərəfli əsasda birbaşa tənzimlənməsi bu gün hər iki dövlət üçün prioritet təşkil edir. İkitərəfli müqavilənin xüsusi önəmi ondan ibarətdir ki, o, çoxtərəfli konvensiyaların bürokratik və ümumi xarakterli asılılığından azaddır. Bu sənəd sırf Azərbaycan və Ukraynanın milli maraqlarına, tərəflərin daxili qanunvericiliyinə və spesifik ehtiyaclarına uyğunlaşdırılmış çevik, birbaşa işlək bir mexanizmdir.

Bu Müqavilənin təsdiqi ilə mülki və ticarət işləri üzrə məhkəmə sənədlərinin çatdırılması, sübutların əldə edilməsi və məhkəmə qərarlarının tanınması və icrası prosesi maksimum dərəcədə sadələşir və sürətlənir. Bu, Ukraynada yaşayan, fəaliyyət göstərən minlərcə soydaşımızın, eləcə də ölkələrimiz arasında mövcud olan ticarət dövriyyəsini təmin edən sahibkarlarımızın hüquqi müdafiəsini birbaşa və daha effektiv şəkildə təmin edəcəkdir.

Xüsusilə qeyd etmək lazımdır ki, ikitərəfli format suveren hüquq bərabərliyinə əsaslanan və xarici faktorlardan təsirlənməyən ən etibarlı tərəfdaşlıq modelidir. Beləliklə, sənədin dövlətlərimiz arasındakı strateji

münasibətlərə yeni dinamika gətirəcəyini nəzərə alaraq həmkarlarımı bu layihəyə səs verməyə çağırıram.

**Nizami Səfərov.** Qlobal və regional müstəvidə cərəyan edən proseslər əyani formada nümayiş etdirir ki, sülhə və beynəlxalq təhlükəsizliyə təhdid yaradan, xalqların, milli və etnik qrupların həyati maraqlarının pozulmasına yönələn faktorların aradan qaldırılması və beynəlxalq hüququn bərpası, sadəcə, diplomatik vasitələrlə deyil, bir çox hallarda hərbi potensialın işə salınması ilə mümkündür. Bunun əsas səbəbləri sırasında universal beynəlxalq təşkilat olan – Birləşmiş Millətlər Təşkilatının, hətta özünün qəbul etdiyi qərarların həyata keçirilməsində nümayiş etdirdiyi selektiv yanaşma və lazımi iradə ortaya qoymaması, beynəlxalq vasitəçilik institutunun “de facto” və “de jure” iflasa uğraması, bir sıra dövlətlərin və onların birliklərinin beynəlxalq hüququ pozan ölkəni dəstəkləməsi, insan hüquqları və əsas azadlıqların müdafiəsini təsis sənədlərində sadəcə bəyan edən qurumların siyası və hüquqi riyakarlığı qeyd edilməlidir.

Xatırlatmaq istərdim ki, keçən əsrin sonunda BMT-nin Qarabağla əlaqədar qəbul etdiyi dörd qətnamədə birmənalı olaraq, ölkəmizin suverenliyi və ərazı bütövlüyünün təsdiq ediliməsinə, ərazilərin əldə olunması üçün güc tətbiqinin yolverilməzliyinin vurğulanmasına, işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal, tamamilə, qeyd-şərtsiz çıxarılması tələblərinə baxmayaraq, bu sənədlərin icrası təşkilatın Nizamnaməsində nəzərdə tutulan hər hansısa bir təzyiq vasitəsi ilə təmin edilmədi.

Dövlətimizin döyüş meydanında BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etməsi, ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpa olunması nəticə etibarı ilə 30 ilə yaxın bir müddətdə heç bir əməli fəaliyyəti ilə yaddaşlarda qalmayan lüzumsuz ATƏT-in Minsk qrupunun və onunla

əlaqəli bütün strukturların buraxılmasına gətirib çıxardı və açıq-aşkar nümayiş etdirdi ki, bu cür qurumlar həqiqi vasitəçilikdən və silahlı münaqişələrin ədalətli, beynəlxalq hüquqa uyğun olaraq həllindən çox uzaqdırlar.

Özlərini demokratiya və insan hüquqlarının müdafiəçisi kimi qələmə verən digər strukturlar – Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti ölkəmizə münasibətdə birmənalı ədalətsiz mövqe sərgiləmişlər.

Təsəvvür edin ki, Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etdikdən və separatçılığa son qoyduqdan 4 ay sonra 30 il azərbaycanlıların hüquqları və əsas azadlıqlarının pozulmasına göz yuman AŞPA nümayəndə heyətimizə qarşı diskriminasiya xarakterli məhdudiyyətlər tətbiq etdi. Avropa Parlamenti də Azərbaycan əleyhinə xüsusi fəallığı ilə fərqlənərək, saxta "humanitar narahatlıqlar" adı altında ölkəmizin əleyhinə qərəzli qətnamələr qəbul edərək sülh prosesini dəstəkləmək əvəzinə destruktiv fəaliyyətə təkan verdi. Ancaq cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan beynəlxalq qurumlarla yalnız bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı hörmət çərçivəsində əməkdaşlıq edə bilər.

Hazırda, bütövlükdə, Cənubi Qafqaz regionunda dövlət başçısının irəli sürdüyü və geri dönüşü olmayan sülh gündəliyi uğurla həyata keçirilir və onun fundamental nəticəsi davamlı sülhün və təhlükəsizlik rejiminin bərqərar olunmasıdır.

**Tənzilə Rüstəmxanlı.** Müzakirəmizə təqdim olunan və bugünkü gündəliyin 7-ci bəndi olaraq yer alan qanun layihələri paketi, mahiyyət etibarı ilə ölkəmizin nəqliyyat-logistika infrastrukturunun hüquqi arxitekturasını yenidən formalaşdıran olduqca geniş və konseptual bir

islahat sənədidir. Birinci oxunuşda nəzərdən keçirdiyimiz bu layihə, eyni anda bir məcəllə və altı mühüm qanuna əsaslı dəyişiklikləri ehtiva edir.

Azərbaycan bu gün qlobal nəqliyyat dəhlizlərinin – Şərq–Qərb və Şimal–Cənub marşrutlarının strateji qovşağına çevrilmişdir. Belə bir tarixi mərhələdə Ticarət Gəmiçiliyi Məcəlləsi başda olmaqla, nəqliyyatın bütün digər sahələrini – avtomobil, dəmir yolu, aviasiya və dəniz daşımalarını tənzimləyən qanunvericiliyin unifikasiya edilməsi və vahid standartlara gətirilməsi qaçılmaz zərurətdir.

Təklif olunan dəyişikliklərin bir neçə mühüm istiqamətinə xüsusi toxunmaq istərdim:

“Nəqliyyat haqqında”, “Avtomobil nəqliyyatı haqqında”, “Yol hərəkəti haqqında” və “Aviasiya haqqında” qanunlara edilən əlavə və dəyişikliklər ölkəmizdə multimedia və multimodal daşımaların effektiv idarə edilməsinə birbaşa xidmət edir. Nəqliyyat növləri arasında koordinasiyanın gücləndirilməsi həm yük, həm də sərnişin daşımalarında təhlükəsizlik standartlarının ən müasir beynəlxalq tələblərə uyğunlaşdırılmasını tələb edir. Bu dəyişikliklər, həm də yollarımızda, hava məkanımızda və dəniz sərhədlərimizdə nəzarət mexanizmlərini daha şəffaf və rəqəmsal formalara keçirir.

Layihədə mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyaların siyahısı və onların nəqliyyat vasitələri ilə daşınması qaydalarının tənzimlənməsi xüsusi yer tutur. Strateji əhəmiyyətli, xüsusi və ya təhlükəli yüklərin ölkə daxilində daşınması və tranziti zamanı icazə mexanizmlərinin təkmilləşdirilməsi milli təhlükəsizliyimizin, ekoloji balansın və ictimai asayişin qorunması baxımından prinsipial xarakter daşıyır. Bu sahədə boşluqların aradan qaldırılması idarəetmədə çevikliyi təmin edəcək.

Biz bilirik ki, logistika və nəqliyyat sektorunun inkişafı birbaşa olaraq burada tətbiq olunan inzibati və maliyyə yüklərinin optimallaşdırılmasından asılıdır. “Dövlət rüsumu haqqında” Qanuna təklif edilən dəyişikliklər müvafiq lisenziya, icazə və xidmətlərin rəsmiləşdirilməsi zamanı rüsumların daha ədalətli, şəffaf və iqtisadi cəhətdən əsaslandırılmış prinsiplərlə müəyyən edilməsinə imkan verəcəkdir. Bu addım rəqəmsal hökumət strategiyasına uyğun olaraq, vətəndaş və sahibkarların dövlət orqanları ilə birbaşa təmaslarını minimuma endirəcək, bürokratik gecikmələri aradan qaldıracaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar fonunda hüquqi bazanın yenilənməsi qanunverici orqan olaraq bizim üzərimizə böyük məsuliyyət qoyur. Bu qanun layihələri paketi, sadəcə, texniki dəyişikliklər deyil, ölkəmizin beynəlxalq reytinqlərdə (məsələn, Logistika Effektivliyi İndeksində) mövqeyinin güclənməsinə, tranzit gəlirlərinin artmasına və yerli logistika şirkətlərinin rəqabət qabiliyyətinin yüksəlməsinə zəmin yaradan strateji bir addımdır.

Təqdim olunan düzəlişlər daxili qanunvericiliyimizi həm də tərəfdar çıxdığımız beynəlxalq konvensiyaların tələbləri ilə tam uzlaşdırır. Hesab edirəm ki, sənəd birinci oxunuşun tələblərinə tam cavab verir və konseptual olaraq dəstəklənməlidir. Komitə iclaslarında da bu məsələlər ətraflı baxılıb və yüksək qiymətləndirilib.

Bütün bunları rəhbər tutaraq, mən bu qanun layihələri paketini tam dəstəkləyirəm və həmkarlarımı da sənədin lehinə səs verməyə dəvət edirəm.